# 525-ci qəzet

11 oktyabr 2012-ci il, cümə axşamı, №185 (3741). Qiyməti 20 qəpik

www.525.az

## Anjey Kaspşik: "Xankəndi aeroportunun yerləşdiyi ərazi Azərbaycanın suveren ərazisidir"

"AEROPORTUN QARŞILIQLI RAZILIQ OLMADAN AÇILMASI DANIŞIQLAR PROSESİNDƏ ŞƏRAİTİ HEÇ DƏ YAXŞILAŞDIRMAYACAQ"



Dünən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq bu gün Azərbaycan Respublikasının Ağdam şəhərinin şərq istiqamətindəki təmas xəttində monitorinq keçirilib.

APA-nın Qarabağ bürosunun xəbərinə görə, monitorinq insidentsiz başa çatıb.

Monitorinqi Azərbaycan tərəfdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik, şəxsi köməkçi Uilyam Prayor və səhra köməkçisi Xristo Xristov, təmas xəttinin qarşı tərəfində isə ATƏT-in ofisinin əlaqələndiricisi Piter Ki və səhra köməkçisi Jiri Aberle keçiriblər.

Anjey Kaspşik jurnalistlərə açıqlamasında monitorinqin normal keçdiyini, hər hansı insident qeydə almadıqlarını deyib.

Kaspşik həmçinin son vaxtlar Xankəndi aeroportundan uçuşların həyata keçiriləcəyi haqda məlumatlara da münasibət bildirib.

"Xankəndi aeroportunun yerləşdiyi ərazi Azərbaycanın suveren ərazisidir. Bu məsələdə Azərbaycan dövlətinin mövqeyindən çox şey asılıdır. Hər halda Xankəndi aeroportunun qarşılıqlı razılıq olmadan açılması danışıqlar prosesində şəraiti heç də yaxşılaşdırmayacaq" — deyə Anjey Kaspşik bildirib.

Qoşunların təmas xəttində atəşkəsin pozulması hallarının davam etdiyini deyən nümayəndə son zamanlar zərərçəkənlərin, ölüm hallarının sayının azalmasının sevindirici olduğunu vurğulayıb.

### Ermənilər atəşkəsi pozmaqda davam edirlər

Erməni silahlı bölmələri srağagün və dünən gecə Ağdam rayonunun Qaraqaşlı kəndi yaxınlığında, Füzuli və Daşkəsən rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən atəşkəs rejimini pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, düşmən cavab atəşi ilə susdurulub.

### Kərbəla ziyarətinə gedən zəvvarımız vəfat etdi

Müqəddəs yerləri ziyarət etmək üçün Kərbəlaya getmiş azərbaycanlı zəvvar qadın vəfat edib.

APA-nın İraqın Azərbaycandakı səfirliyinə istinadən yaydığı məlumata görə, 1937-ci il təvəllüdlü Sura Əhməd Malik qızı Əsgərova 36 nəfərlik qrupun tərkibində Kərbəla ziyarətinə gedib və ziyarətdən qayıdan zaman vəfat edib. O İraqın Zirbatiya rayonunda dəfn olunub.

Qeyd edək ki, azərbaycanlı zəvvarlar qrupu artıq İraq ərazisini tərk ediblər.

### Mingəçevirdə zəlzələ oldu

Azərbaycanda növbəti zəlzələ olub. AMEA Respublika Seysmoloji Xidmət Mərkəzindən APA-ya verilən məlumata görə, zəlzələ oktyabrın 10-u saat 05:35-də Mingəçevirdən 4 km şimalda qeydə alınıb. Zəlzələ Mingəçevirdə 3.0 bal gücündə hiss olunub.

İnsan itkisi və dağıntılar yoxdur.

## Gülər Əhmədovanın evində axtarış aparılıbmı?

BAŞ PROKURORLUQDAN AÇIQLAMA VERİLDİ



Baş Prokurorluq sabiq millət vəkili Gülər Əhmədovanın evində axtarış aparılması ilə bağlı yayılan məlumatlara münasibət bildirib. Qurumun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov APA-nın sorğusuna cavabında qeyd edib ki, bəzi KİV-də Gülər Əhmədovanın mənzilində prokurorluq əməkdaşları tərəfindən axtarış aparılması ilə bağlı yayılan məlumatlar həqiqətə uyğun deyil: "Bu məlumat doğru deyil və tərəfimizdən qəti şəkildə təkzib olunur".

E. Sultanov həmçinin KİV nümayəndələrinə müraciət edərək, bu qəbildən olan informasiyaların düzgünlüyünü dəqiqləşdirmədən yayımlamamağı tövsiyə edib.

Xatırladaq ki, sentyabrın 25-də internetdə E. Abdullayev, deputat Gülər Əhmədova və Sabir adına Kitabxananın direktoru Sevinc Babayeva ilə bağlı video material yayılıb. Video materialda deputatla sabiq rektor və vasitəçi kimi təqdim olunan S. Babayeva arasında E. Abdullayevin Milli Məclisin üzvü seçilməsi üçün yüksək məbləğdə rüşvət verməsi, ondan əlavə məbləğ istənilməsi barədə dialoq əksini tapıb. Dialoqda yüksək vəzifəli şəxslərin də adı çəkilib.

Qeyd edilən audio və videoyazılarda dələduzluğun, yəni etibardan sui-istifadə etmə yolu ilə özgə əmlakını ələ keçirmənin əlamətləri olduğundan həmin məlumatların hərtərəfli, tam və obyektiv araşdırılmasını təmin etmək məqsədilə çoxsaylı təxirəsalınmaz istintaq və istintaq-əməliyyat tədbirlərinin keçirilməsinin zəruriliyini nəzərə alaraq toplanmış material üzrə Cinayət Məcəlləsinin 178.3.2-ci (etibardan sui-istifadə etməklə özgənin külli miqdarda əmlakını ələ keçirmə) maddəsi ilə cinayət işi başlanıb.

## İsmayıllıdakı zəlzələ 20 saat əvvəldən qeydə alınıb



Azərbaycanda zəlzələləri əvvəlcədən proqnozlaşdıran 4 stansiyanın hamısı oktyabrın 7-də İsmayıllıda 5,3 bal gücündə zəlzələni 20 saat əvvəldən qeydə alıb. Bu barədə APA-ya Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Kibernetika İnstitutunun direktoru Telman Əliyev bildirib.

Onun sözlərinə görə, hələlik zəlzələlərin dəqiq yerini demək mümkün olmadığından bu barədə məlumat verilməyib. Amma eksperimentlər göstərir ki, bu stansiyalar həqiqətən 15-20 saat əvvəlcədən zəlzələləri qeydə alırlar. Stansiyalar sözügedən zəlzələdən sonra baş verən afterşokları, Şamaxı və Mingəçevirdə baş verən zəlzələləri də qeydə alıblar.

T.Əliyev deyib ki, hazırda zəlzələlərin koordinatlarını qabaqcadan təyin etmək üzərində işlənilir: "Yaxın vaxtlarda zəlzələlərin dəqiq yerini də deyə biləcəyik. Ondan sonra bütün əhaliyə yox, ölkə rəhbərliyi məsləhət bildiyi quruma bu barədə məlumat veriləcək. Yaxın 2-3 ay ərzində qabaqcadan zəlzələ baş verəcək ocağın koordinatlarını və maqnitudasını dəqiq deyə biləcəyik".

## Cəmil Çiçək: "Türk millətinin içərisinə səpilmiş təriqətçi toxumlar bu gün də cücərir"



Türkiyə Böyük Millət Məclisinin sədri Cəmil Çiçək Ankarada keçirilən "1402-ci il Ankara döyüşü" mövzulu beynəlxalq konfransda türk dünyasını tarixdən ibrət dərsi götürməyə çağırıb. AzərTAc-ın məlumatına görə, konfransda çıxış edən Cəmil Çiçək deyib: "1402-ci ildə Əmir Teymur və Yıldırım Bəyazidin qarşı-qarşıya gəldiyi və Osmanlı dövlətinin ağır məğlubiyyətə uğradığı bu qanlı döyüşdən sonra bütün türk dünyası ağır zərbə alıb. Osmanlı imperiyası 100 illik uğurlarını itirib, yarım əsr dövlət daxilində parçalanma və müharibələr yaşanıb. Bu döyüşdən sonra türklərin Anadoluda varlığı da təhlükə altına düşüb. Şah İsmayıl Xətai və Yavuz Sultan Səlim, Əmir Teymur və Yıldırım Bəyazid döyüş meydanında qarşı-qarşıya gələndə bu döyüşlərin qalibi olmayıb, bütün türk dünyası itkilərə məruz qalıb. Bu müharibələr Anadolu və Orta Asiya türklərinin arasına bir bıçaq kimi saplanıb. Ankara döyüşündən 610 il keçməsinə baxmayaraq bu gün də siyasətçilərin ibrət dərsi götürəcəkləri bir çox məqamlar var. İndi türk dünyasının siyasi liderləri ortaq tarix, mədəniyyət və ənənələrimizi yaşatmaq üçün əlaqələri möhkəmləndirirlər".

Cəmil Çiçək əlavə edib ki, Əmir Teymur böyük bir hökmdar və dahi sərkərdə olsa da, onun türk dünyası tarixində rolu mübahisəlidir: "Tarixdən ibrət almayan topluma hər zaman bəlada olacaq. Tarixdə böyük dövlətləri quran da, onları yıxan da türklər olub. Türk millətinin içərisinə səpilmiş etnik, təriqətçi toxumlar bu gün də cücərir. Onlara qarşı tədbirli olmaq lazımdır".

"1402-ci il Ankara döyüşü" konfransını Türk Tarix Kurumu, Ankara Strateji Araşdırmalar Vəqfi və Qazi Universiteti təşkil edib.

## Türkiyəyə səfər edən Ermənistan vətəndaşlarının sayı artır



2012-ci ilin yanvar-avqust aylarında Türkiyəyə səfər etmiş Ermənistan vətəndaşlarının sayı 0,4 faiz artaraq 46 min 598 nəfər təşkil edib.

APA-nın news.am-a istinadən verdiyi məlumata görə, 2012-ci ilin avqustunda Türkiyəyə getmiş ermənilərin sayı 11 min 734 nəfər, yəni ötən ilin analoji dövrü ilə müqayisədə 4 faiz çox olub.

2011-ci ildə 72 min 393 nəfər Ermənistan vətəndaşı Türkiyəyə səfər edib, bu isə 2010-cu ildən 45 faiz çoxdur.

### Doktoranturaya qəbul imtahanlarının günləri təyin edildi

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) 2012-2013-cü tədris ili üçün doktoranturaya qəbul imtahanlarının günlərini təyin edib.

AMEA Rəyasət Heyətinin akademik katibi Vaqif Fərzəliyevin APA-ya verdiyi məlumata görə, fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya qəbul imtahanları oktyabrın 15-dən noyabrın 7-dək keçiriləcək. İlk imtahan ixtisas fənnindən oktyabrın 15-dən 21-dək olacaq. İkinci imtahan fəlsəfədən oktyabrın 22-dən 29-dək keçiriləcək. Son imtahan xarici dildən olacaq.

V. Fərzəliyev deyib ki, ixtisas fənnindən aşağı qiymət alanlar sonrakı imtahanlara buraxılmayacaqlar.

## Həcc ziyarətinə getmək və qayıtmaq günləri açıqlandı



Qafqaz Müsəlmanları İdarəsi Azərbaycan zəvvarlarının Həcc ziyarətinə oktyabrın 12-dən yola düşəcəyini açıqlayıb. "Media forum" saytına verilən məlumata görə, zəvvarlar Bakı-Ciddə marşrutu ilə 12 reyslə yola salınacaq: 12 oktyabrda bir, 13 oktyabrda bir, 14 oktyabrda bir, 15 oktyabrda üç, 16 oktyabrda üç, 17 oktyabrda iki, 18 oktyabrda bir təyyarə Səudiyyə Ərəbistanına istiqamət götürəcək.

Zəvvarların Azərbaycana 5-12 noyabr arası Mədinə-Bakı marşrutu üzrə qayıtmaları nəzərdə tutulur: 5 noyabrda iki, 6 noyabrda iki, 7 noyabrda iki, 8 noyabrda iki, 9 noyabrda bir, 10 noyabrda bir, 11 noyabrda bir, 12 noyabrda bir təyyarə Bakıya uçacaq.

## Azərbaycanda mülayim hava proqnozlaşdırılır

Bakı və Abşeron yarımadasında oktyabrın 11-də hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində əsasən yağmursuz keçəcəyi gözlənilir.

Şimal-qərb küləyi gündüz cənub küləyi ilə əvəz olunacaq. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, havanın temperaturu gecə 15-20, gündüz 20-25 dərəcə isti təşkil edəcək. Azərbaycanın rayonlarında oktyabrın 11-də hava şəraitinin gün ərzində yağmursuz keçəcəyi gözlənilir. Şərq küləyinin sürəti saniyədə 5-10 metr təşkil edəcək. Havanın temperaturu gecə 14-19, gündüz 25-30, dağlarda gecə 6-11, gündüz 15-20 dərəcə isti olacağı gözlənilir. Oktyabrın 11-də respublika ərazisində hava şəraitinin mülayim keçəcəyi gözlənilir.

# Dövlət Sosial Müdafiə Fondunun yaranmasının 20 illik yubileyi qeyd edilib



Dünən Dövlət Sosial Müdafiə Fondunun yaradılmasının 20 illiyinə həsr olunan yubiley tədbiri keçirilib.

Fondun yeni inşa olunan iclas zalında çıxış edən Dövlət Sosial Müdafiə Fondunun sədri Səlim Müslümov bildirib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan, son 9 ildə isə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən davam etdirilən sığorta-pensiya siyasətinin gerçəkləşməsi nəticəsində ölkəmizin tam özünəməxsus sığorta-pensiya sistemi formalaşıb. Onun sözlərinə görə, DSMF-nin bu 20 illik inkişaf tarixi, eyni zamanda sığorta-pensiya sisteminin inkişaf tarixi kimi xarakterizə edilə bilər: "Fondun 20 illik inkişaf tarixi əsasən dörd mərhələni əhatə edir. Bunlar 1992-1995-cı illər, 1996-2002-ci illər, 2003-2005-ci illər, 2006-cı ildən sonrakı dövrdür. Bu dövrlərdə pensiya sisteminin yeni şəraitə uyğun qurulmasına zəruri dəyişikliklərə etibarlı iqtisadi baza yaradıldıqdan və demoqrafik baxımdan əlverişli vaxt seçildikdən sonra başlamaq, buna qədər isə əvvəlki həmrəylik və dövlət təminatı sistemlərinə əsaslanmaq, əsas taktiki addımlar kimi seçilmişdi".

S.Müslümov diqqətə çatdırıb ki, ölkəmizdə sosial müdafiə sisteminin yenidən qurulması məqsədilə islahatların aparılmasında beynəlxalq standartların və hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarının əsas götürülməsi nəticəsində 2006-cı ildən müasir tələblərə cavab verən sığorta-pensiya sisteminin fəaliyyəti təmin edilib: "Azərbaycanın sığorta-pensiya sistemində üçpilləli pensiya təminatı müəyyənləşdirilib, əvvəlki sistemlə pensiyaya çıxmış insanların da bu sistemlə əhatə olunması, onların pensiya hüquqlarının qorunmasında sosial ədalətin gözlənilməsi və heç bir məhdudiyyət qoyulmadan yeni şəraitə inteqrasiyası tamamlanıb. İşləyənlərə pensiya və sosial sığorta müavinətlərinin yeni qaydalarla verilməsinə keçilib, bununla da işləyənlər üzrə pensiya və müavinətlərin ödənişinin iş yerlərindən aparılması səbəbindən yaranan problemlər, o cümlədən sosial ödənişlər üzrə borc yaranması halları aradan qaldırılıb. Eləcə də əmək ödənişi və məcburi dövlət sosial sığortasına cəlb olunan digər gəlirləri əldə edən əcnəbilərin məcburi dövlət sosial sığortası ilə əhatə olunması və Azərbaycan vətəndaşları ilə bərabər əsaslarla əmək pensiyası təminatı hüququ müəyyənləşdirilib. Hərbi qulluqçular və xüsusi rütbəli şəxslərin məcburi dövlət sosial sığortasına cəlb edilməsinə və fərdi uçotla əhatə olunmasına, həmin şəxslərin və dövlət qulluqçularının əmək pensiyaları ilə təminatına keçilib. Bütövlükdə pensiyaların artımı mexanizminin bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılması mövcud maliyyə imkanlarının pensiyaçılar arasında daha ədalətli bölgüsünə və pensiya məbləğlərinin indeksləşdirilməsi vasitəsilə inflyasiyadan qorunmasına şərait yaradıb".

Fond sədri vurğulayıb ki, aparılan islahatlar əmək pensiyalarının sürətli artımını təmin edib: "Əgər 2003-cü ildə Azərbaycanda sığorta-pensiya sistemində əvəzetmə əmsalı 23-25 faizlə ifadə olunurdusa, bu gün sözügedən göstərici artıq 40 faiz təşkil edir. 2003-cü ilin əvvəlinə Azərbaycanda orta aylıq pensiyanın məbləği yeni manatla 20 manat idi. Hazırda ölkə üzrə əmək pensiyalarının orta aylıq məbləği 151,3 manat, o cümlədən yaşa görə əmək pensiyalarının orta aylıq məbləği 167 manat təşkil edir. Azərbaycanda ölkə üzrə əmək pensiyalarının orta aylıq məbləğinin əməkhaqlarının orta aylıq məbləğinə nisbəti 40 faizə, yaşa görə əmək pensiyalarının orta aylıq məbləğinin əməkhaqlarının orta aylıq məbləğinə nisbəti isə 45 faizə çatıb. Bununla da son illər ərzində sığorta-pensiya sistemində həyata keçirilən islahatlar nəticəsində beynəlxalq aləmdə qəbul edilmiş mühüm göstəricilərə nail olunub. 2006-cı ildən indiyədək DSMF-nin xərcləri 4,4 dəfə artaraq 2,5 mlrd. manata çatıb. DSMF-nin gəlirləri isə 4,1 dəfə artıb, sosial sığorta ödəyicisi olan sığortaolunanların sayı 1 milyon 300 min nəfərdən 2 milyon 100 min nəfəri ötüb, sosial sığorta haqqının dərəcələri 29 faizdən 25 faizə endirilib. 2011-ci ilin 1 iyulundan bu istiqamətdə islahatların sonuncu mərhələsi gerçəkləşdirilib və həmin insanların pensiyalarının əvvəlki sistemin fəaliyyəti dövründəki iş stajları əsasında yenidən hesablanması nəticəsində ortalama 40 faiz artırılıb. Bu islahat tədbirinin illik maliyyə tutumu 500 milyon ABŞ dollarından çox olub.

S.Müslümov Azərbaycanın sığorta-pensiya sisteminin beynəlxalq aləmdə qazandığı uğurlar barədə danışıb. O bildirib ki, hazırda Azərbaycanın sığorta-pensiya modeli nüfuzlu beynəlxalq təşkilatlar və maliyyə institutları tərəfindən yüksək qiymətləndirilir. Fond rəhbərinin sözlərinə görə, "2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı" çərçivəsində sığorta-pensiya sistemində islahatlar davam etdirilir: "Hazırda sığorta-pensiya sisteminin 2020-ci və 2040-cı illər üçün perspektiv inkişafı istiqamətlərinin müəyyənləşdirilməsi məqsədilə tədqiqatlar aparılır".

**BƏXTİYAR**

# BSU-nun xarici əlaqələri genişlənir



Dünən Humbolt adına Berlin Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri Eva Mariya Aux Bakı Slavyan Universitetinin qonağı olub. Xanım Eva Mariya Auxun gəlişinin məqsədi BSU ilə Almaniyanın Humbolt adına Berlin Universitetinin Azərbaycan tarixi kafedrası və Akademik Mübadilə Xidməti (DAAD) arasında elm və təhsil sahəsində əməkdaşlıq üzrə razılaşma imzalamaq idi.

BSU-nun rektoru, AMEA-nın müxbir üzvü prof. Kamal Abdullayev qonağı BSU-da qarşılamağa şad olduğunu bildirdi və Humbolt adına Berlin Universitetində iki il bundan öncə açılmış və uğurla fəaliyyətə başlamış Azərbaycan tarixi kafedrası haqqında tədbir iştirakçılarına məlumat verdi: "Çox sevindirici haldır ki, nəinki Almaniyada, eləcə də bütün dünyada öz elmi potensialı ilə nüfuz qazanmış Humbolt adına Berlin Universiteti əməkdaşlıq üçün məhz Bakı Slavyan Universitetini seçib. Əminəm ki, biz bu inamı doğruldacağıq və hər iki tərəf bu əməkdaşlıqdan razı qalacaq".

Çıxış edən xanım prof. Eva Mariya Aux BSU-ya 4 il əvvəki gəlişindən danışdı. Bildirdi ki, həmin təcrübə zamanı Azərbaycan və rus dillərini öyrənməyə gələn 20 alman tələbəsinin əksəriyyəti məhz Azərbaycanın tarixi və mədəniyyəti ilə yaxından maraqlanır, öz elmi işlərində bu sahə üzrə ixtisaslaşırlar. Tələbələrin təcrübə dövründə əldə etdikləri nailiyyətlər əməkdaşlığı dərinləşdirmək üçün böyük ümidlər verir. Prof. Eva Mariya Aux onu da diqqətə çatdırdı ki, Humbolt adına Berlin Universiteti Almaniyada hər il keçirilən ən yaxşı universitet müsabiqəsində yüksək yerlərdə qərarlaşır: "Məhz Azərbaycan rəhbərliyinin səyi nəticəsində Humbolt adına Berlin Universitetində iki il bundan öncə açılmış Azərbaycan tarixi kafedrası universitetlərimiz, ümumilikdə isə ölkələrimiz arasında elmi və mədəni əlaqələrin inkişafına yardımçı olacaq. Ümid edirəm ki, bu gün imzalayacağımız razılaşma da bunun bariz nümunəsidir".

Tərəflər arasında əməkdaşlıq haqqında imzalanmış razılaşmada BSU üçün alman dili və ədəbiyyatı üzrə, Humbolt adına Berlin Universitetinin Azərbaycan tarixi kafedrası üçün Azərbaycan dili və ədəbiyyatı üzrə kurrikulumların hazırlanması, Alman dilində Azərbaycan dilini öyrənənlər üçün elmi-metodik ədəbiyyat və özünüöyrədən kitabın tərtib və nəşr edilməsi, qədim türk eposu "Kitabi-Dədə Qorqud"-un 1815-ci ildə Fridrix Fon Dits tərəfindən nəşr edilməsinin 200 illiyinə həsr olunmuş alman-azərbaycan filoloji bayramının keçirilməsinə dair tədbirlər planının hazırlanması və onun həyata keçirilməsi, tərəflər arasında müəllim, elmi işçi, tələbə mübadiləsinin həyata keçirilməsi, birgə elmi-tədqiqat fəaliyyətinin, elmi tədbirlərin — konfransların, seminarların, simpoziumların, kollokviumların təşkili, elmi məqalə məcmuələrinin hazırlanması və nəşr olunması, tərəflərin elmi-tarixi ədəbiyyatla qarşılıqlı təmin olunması, Clio-Caucaus elektron portalının fəailyyətində iştirak nəzərdə tutulub.

**Günay ƏLİYEVA**

## 2012-ci ilin 9 ayında Vergilər Nazirliyinin xətti ilə büdcəyə 4,6 milyard manat vəsait daxil olub

2012-ci ilin yanvar-sentyabr aylarında Vergilər Nazirliyi tərəfindən dövlət büdcəsinə vergi daxilolmalarının həcmi 4 milyard 562 milyon 764,5 min manat təşkil etmişdir. Vergi daxilolmalarının 37,2 faizi mənfəət vergisinin, 24 faizi əlavə dəyər vergisinin, 12,9 faizi fiziki şəxslərin gəlir vergisinin, 8 faizi aksizlərin, 17,9 faizi isə digər vergilərin payına düşür.

Qeyri-neft-qaz sektoru üzrə 2 milyard 462 milyon 265,1 min manat vəsait büdcəyə daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 14,1 faiz çoxdur.

Yanvar-sentyabr aylarında respublika üzrə 54 min 939 vergi ödəyicisi qeydiyyata alınmışdır. 2011-ci ilin iyul ayının 1-dən cari ilin oktyabr ayının 1-dək 43 min 921 fiziki şəxs elektron qaydada qeydiyyatdan keçmişdir. 1 oktyabr 2012-ci il tarixə qeydiyyatda olan vergi ödəyicilərinin ümumi sayı 467244 olub.

2012-ci ilin yanvar-sentyabr ayları ərzində respublika üzrə elektron formada göndərilmiş bəyannamələrin xüsusi çəkisi 90,2 faiz təşkil edib.

# Bakı şəhəri üzrə rəqəmsal kadastr xəritələri yaradılır

Dünən Əmlak Məsələləri Dövlət Komitəsi (ƏMDK) tərəfindən "Bakı şəhəri üzrə daşınmaz əmlaklar haqqında elektron kadastr məlumat bazasının yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtibi" layihəsinin ictimai təqdimatı keçirilib. Tədbirin başlıca məqsədi Bakı şəhərində başlanacaq kadastr layihəsinin uğurla həyata keçirilməsi məqsədi ilə maraqlı tərəflər və vətəndaşlar arasında maarifləndirmə, agahlıq və izahat işlərinin aparılması, digər əlaqədar icra qurumları ilə fəaliyyətin əlaqələndirilməsi, iş prosesində dəstəyə nail olunmasından ibarətdir. İctimai təqdimatda komitənin məsul işçiləri ilə yanaşı Fövqəladə Hallar və Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, Şəhərsalma və Arxitektura Komitəsinin, Bakı Şəhər İcra Hakimiyyətinin, Dövlət Neft Şirkətinin, "Azərsu", "Azərenerji" və "Azəriqaz" səhmdar cəmiyyətlərinin, bələdiyyələr, yerli şəhər təşkilatlarının nümayəndələri iştirak edib. Həmçinin tədbirə komitə tərəfindən həyata keçirilən layihələrdə birgə əməkdaşlıq etdiyi beynəlxalq şirkət və təşkilatlar, layihəyə cəlb olunmuş özəl şirkətlərin nümayəndələri, habelə əmlak bazarında fəaliyyət göstərən QHT-lər qatılıb.

Tədbirdə çıxış edən komitə sədrinin müavini Rafiq Cəlilov qeyri-neft sektorunun inkişafında vacib rol oynayan və investisiya proseslərinə təkan verən Azərbaycanda daşınmaz əmlakın qeydiyyatı və kadastrı sahəsini əhatə edən hazırkı layihənin başlıca məqsədləri və gözlənilən nəticələr barədə ətraflı məlumat verilib. O bildirib ki, ƏMDK tərəfindən müasir dünya təcrübələrinə əsaslanan yeni kadastr sistemi formalaşdırılır: "Ölkədə daşınmaz əmlakın kadastrı sahəsində qanunvericiliyin təkmilləşdirilməsi üçün normativ-hüquqi baza yaradılır, özəl kadastr mərzçəkənlər institutu formalaşdırılır, beynəlxalq əməkdaşlıq çərçivəsində kadastr sahəsində qabaqcıl dünya təcrübəsi öyrənilir, müxtəlif beynəlxalq layihələr həyata keçirilir, ölkəmizin kadastr sisteminə ən müasir texnika və texnologiyalar gətirilir.

R.Cəlilov qeyd edib ki, artıq icrasına başlanan "Bakı şəhəri üzrə daşınmaz əmlaklar haqqında elektron kadastr məlumat bazasının yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtibi" Layihəsi Dünya Bankının, Almaniya KfW Bankının və cəlb edilmiş beynəlxalq məsləhətçilərin tövsiyələri nəzərə alınmaqla hazırlanmış Texniki Tapşırığa əsasən elan edilən açıq tenderin qalibi Türkiyənin "Kutlubey Harita İnşaat Mühendislik Sanayi Ticaret A.Ş" şirkəti tərəfindən həyat keçiriləcək: "12 ay ərzində həyata keçiriləcək bu layihə çərçivəsində ilk olaraq Bakı şəhərinin Sabunçu və Suraxanı rayonlarında mövcud olan daşınmaz əmlak obyektləri barədə elektron kadastr məlumat bazası yaradılacaq. Belə ki, qeyd edilən rayonların rəqəmsal kadastr xəritələri tərtib ediləcək. Bu müddət ərzində həmçinin Bakı şəhərinin digər 9 rayonunun daşınmaz əmlaka dair rəqəmsal kadastr xəritələrinin tərtibi üçün zəruri kameral hazırlıq işləri görüləcək. Layihəyə əsasən, Bakı şəhəri üzrə daşınmaz əmlaklar haqqında elektron kadastr məlumat bazasının yaradılması və rəqəmsal kadastr xəritələrinin tərtibi nəzərdə tutulur. Bütün bunlar isə öz növbəsində vətəndaşlara göstərilən elektron xidmətlərin tətbiqi üçün mühüm informasiya mənbəyi olacaq".

R.Cəlilov həmçinin qeyd edilb ki, Azərbaycan hökumətinin maliyyə vəsaiti hesabına "Sumqayıt şəhəri üzrə daşınmaz əmlaklar haqqında elektron kadastr məlumat bazasının yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtibi" Layihəsi müvəffəqiyyətlə başa çatmaq üzrədir. Eləcə də Gəncə şəhərində və Şəki rayonunda "Kadastr və daşınmaz əmlakın qeydiyyatı" Layihəsinin birinci fazasına dair işlər artıq yekunlaşdırılıb. Ümumiyyətlə, yaxın 3 il ərzində Sumqayıt, Bakı, Gəncə şəhərləri və Şəki rayonu üzrə "mükəmməl kadastr"ın, respublikamızın digər şəhər, rayon, qəsəbə və kəndləri üzrə isə "sadə kadastr"ın yaradılmasına nail olmaq niyyətindəyik. Sonrakı illərdə "mükəmməl kadastr"ın yaradılması işləri ölkənin bütün ərazisini əhatə edəcək".

**BƏXTİYAR**

## "HESAB.AZ"DA 500-mininci ödəniş qeydə alındı




"Hesab.az" on-layn ödəmələr portalında 500-mininci əməliyyatın müəllifi və "Lumia-710" smartfonu qazanan istifadəçi 26 yaşlı Kamilla Əliyeva oldu. Bazar günü portalda önəmli tranzaksiya keçirən və nəticədə hədiyyə alan bu xanım müştəri 2011-ci ilin iyun ayınından "Hesab.az"da qeydiyyatdan keçib.

"Hesab.az"da artıq qeydiyyatdan keçən və şəxsi kabinet opsiyasından istifadə edənlərin sayı 25 minə yaxınlaşır. Portalın xidmətlərindən yararlanan bu müştərilər, aparılan əməliyyatların sayını artıq 508,6 minə çatdırıblar. Bu o deməkdir ki, elan olunan aksiya dövründə on-layn ödəmələrin sayı 51% çoxalıb, əməliyyatların həcmi isə bu zaman 1,55 dəfə artaraq 109,4 min AZN-ə bərabər olub. Nəticədə hər tranzaksiyanın payına düşən məbləğ də bir qədər artıb və hal-hazırda 8,70 AZN təşkil edir.

Xatırladaq ki,"GoldenPay" ödəmə texnologiyaları əsasında çalışan "Hesab.az" portalı hal-hazlrda istənilən mobil operatorların, əksər İnternet-provayderlərin, kabel televiziya şəbəkələrin, kommunal və digər şirkətlərin xidmətlərini istənilən banka məxsus plastik kartlar vasitəsi ilə ödəmək imkanı verir. Bu zaman qeydiyyatdan keçən istifadəçilər şəxsi kabinet açmaq, ödəniş tarixçələrini aparmaq və bonus kampanisında iştirak edərək müxtəlif növ hədiyyələr ala bilərlər. Portalın tərəfdaşı olan şirkətlərin xidmətlərini həmçinin cib telefonlar vasitəsi ilə — m.hesab.az mobil resursdan da ödəmək olar.

## "Bank Standard" plastik kart sahibləri "Qatar Airways" şirkətinin biletlərini endirimlə əldə edə biləcəklər




"Bank Standard" və "Qatar Airways" şirkəti oktyabr ayının 9-dan etibarən yeni müştərək aksiyaya başlayıb. Bu aksiya çərçivəsində "Bank Standard"ın buraxdığı kartların sahibləri "Qatar Airways" aviaşirkətinin əksər hərəkət marşurutlarına satılan biletlərin qiymətlərində — biznes-klass üçün 15%, ekonom-klass üçün isə 10% güzəşt əldə edəcəklər.

Cari ilin dekabr ayının 30-dək qüvvədə olan akisya bu ilin 9 oktyabrından 2013-cü ilin 13 aprel tarixindək həyata keçiriləcək uçuşları əhatə edir. Bu zaman dekabrın 14-dən gələn ilin 20 yanvar tarixləri arası uçuşlar istisna təşkil edir. Güzəştlər tutulan vergilərə şamil olunmur.

Müştəri www.qatarairways.com/az-bank01 saytı vasitəsilə aksiya haqda həm əlavə məlumat ala, həm də aksiyadan yararlanmaq üçün kartı vasitəsilə ödəniş həyata keçirə bilər. Qiymətlərdə endirim avtomatik olaraq müştəriyə təqdim olunacaq.

"Bank Standard"ın yeni tərəfdaşı olan "Qatar Airways" müştərilərə 5 ulduz səviyyəli xidmət göstərən və dünya üzrə 100-dən artıq istiqamətdə uçuşlar həyata keçirən dinamik inkişafda olan bir aviaşirkətdir. "Qatar Airways" Britaniyanın "Skytrax" şirkəti tərəfindən dünyanın ən yaxşı aviaşirəti adına layiq görülüb.

# "Sepah"la əməkdaşlığa görə məhkum olunanlar Bakı İstintaq Təcridxanasına köçürülüb

İran İslam İnqilabı Keşikçiləri Korpusu ("Sepah") ilə əməkdaşlıqda ittiham olunaraq məhkum edilən 22 nəfər Milli Təhlükəsizlik Nazirliyindən Bakı İstintaq Təcridxanasına köçürülüb. Məlumatı "Media forum" saytına Nardaran Ağsaqqallar Şurasının sədri, məhkum Niyazi Kərimovun qardaşı Natiq Kərimov verib. Natiq Kərimovun sözlərinə görə, bəzi məhkumların yaxınları oktyabrın 10-da Bakı İstintaq Təcridxanasına ərzaq aparıblar: "Mən təcridxanaya oktyabrın 11-də getməyi planlaşdırıram. Görüş üçün müraciət edəcəm, amma güman etmirəm icazə verələr".

22 nəfər bu il Milli Təhlükəsizlik Nazirliyinin həyata keçirdiyi əməliyyat tədbirləri nəticəsində tutulublar. Onlar İran İslam Respublikasının xüsusi xidmət orqanı olan "Sepah"la məxfi əməkdaşlıq etməkdə, Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi zərərinə istifadə üçün məlumatlar toplamaqda təqsirli biliniblər.

Cinayət işi Cinayət Məcəlləsinin 28. 214.2.1 (cinayətə hazırlıq; terrorçuluq; qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə;), 28, 214.2.3 (cinayətə hazırlıq; terrorçuluq; odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə törədildikdə;), 228. 2.1 (qanunsuz olaraq odlu silah, döyüş sursatı əldə etmə, başqasına vermə və daşıma) və 274-cü (dövlətə xəyanət) maddələri ilə aparılıb.

Bakı Ağır Cinayətlər Məhkəməsinin 8 oktyabr hökmü ilə Niyazi Kərimov 13, Həmidağa Ələkbərov 13, Elman Tağıyev 13, Taleh Rəsulov 10, Rahim Qasımov 10, Məmmədtağı Zəkiyev 10, Nüsrət Cəlilov 10, Ceyhun Həbibov 10, Şahin Məmmədov 10, Mübariz Əliyev 10, Bəhram Qasımov 10, Araz Abbasov 10, Əfqan Abbasov 10, Mirələsgər Ağayev 10, Rövşən Zülfüqarov 10, Seymur Qasımov 10, Elçin Kərimov 10, Zahid Məmmədov 10, Gülhüseyn Nuriyev 5, Əbülfət Zəkiyev 3, Əli Bəşirov 3, Asəf Fərəcov 3 il müddətinə azadlıqdan məhrum edilib.

# Prezidentin sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib



Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2012-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

APA-nın məlumatına görə, bu ilin ilk doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarını təhlil edən Prezident İlham Əliyev bildirib ki, ötən dövrdə Azərbaycan iqtisadiyyatı 1,1 faiz, qeyri-neft iqtisadiyyatı isə 10,3 faiz artıb. Ölkədə abadlıq-quruculuq işləri genişlənib, yeni sənaye müəssisələri fəaliyyətə başlayıb. 9 ayda ölkə iqtisadiyyatına 16 milyard dollar sərmayə qoyulub. Həmin sərmayələrin 70 faizi daxili investisiyalardır. Özəl sektorun ÜDM-də çəkisi 83 faiz, kənd təsərrüfatında artım 6,3 faiz olub, bu ilin əvvəlindən strateji valyuta ehtiyatları 5 milyard dollar artıb və hazırda 45 milyard dollar səviyyəsindədir.

Valyuta ehtiyatlarının idarə olunması ilə bağlı yeni istiqamətlərin araşdırıldığını deyən dövlət başçısı 9 ayda əhalinin pul gəlirlərinin 12 faiz artdığını, inflyasiyanın 1,5 faiz, orta aylıq əmək haqqının 500 dollar, orta pensiyanın 190 dollar səviyyəsində olduğunu deyib və ölkədəki inkişafın insanların yaşayış səviyyəsinə təsirsiz ötüşmədiyini diqqətə çatdırıb. Ölkədə ümumi sənaye istehsalının son illərdə azaldığını deyən Prezident İlham Əliyev bu prosesin ilin 9 ayında da müşahidə olunduğunu bildirdi və bunun səbəbləri barədə danışıb.

"Buna baxmayaraq, Azərbaycanda inkişaf prosesləri sürətlə gedir, beynəlxalq maliyyə institutları, əsas reytinq agentlikləri ölkəmizin uğurlarını yüksək qiymətləndirir" deyən Prezident İlham Əliyev ölkəmizin kredit reytinqlərinin artdığını deyib. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramının icrası nəticəsində indiyə qədər ölkədə 1 milyon 100 min yeni iş yerinin açıldığını, il ərzində 188 məktəbin tikildiyini, 103 məktəbin əsaslı təmir edildiyini deyən Prezident İlham Əliyev keçən rübdə Azərbaycanın idman uğurlarını daha da artırdığını, London Yay Olimpiya Oyunlarında idmançılarımızın parlaq qələbələrə imza atdığını deyib.

Dövlət başçısı bildirib ki, Azərbaycan beynəlxalq arenada da böyük uğurlar əldə edib. BMT TŞ-də Azərbaycanın mövqeyi böyük rəğbətlə qarşılanır, Qoşulmama Hərəkatına üzv olan 120 ölkə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Bununla da dünya birliyinin 4/3 hissəsi Dağlıq Qarabağ münaqişəsinin həllini ərazi bütövlüyü prinsipi çərçivəsində görür. "Biz indi dünyada yeni tərəfdaşlar qazanırıq" deyən Prezident İlham Əliyev Latın Amerikası ölkələri ilə əməkdaşlıq əlaqələrinin qurulmasının səmərəli olduğunu deyib.

Sonra Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov, nəqliyyat naziri Ziya Məmmədov, əmək və əhalinin sosial müdafiəsi naziri Füzuli Ələkbərov ilin 9 ayında görülən işlər və qarşıda duran vəzifələrlə bağlı məruzə ediblər. Prezident İlham Əliyev yekun çıxışında inflyasiya risklərinin qarşısının alınması, bir müddət öncə qərb bölgəsində baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı tədbirlərin davam etdirilməsi, qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin daha da yaxşılaşdırılması, ölkədə məktəblərin, uşaq bağçalarının, yeni yolların tikintisi və yenidənqurulması, əhalinin qaz, elektrik və içməli suya tələbatının ödənilməsi, ərzaq təhlükəsizliyinin təmin olunması ilə bağlı tapşırıqlarını verib.

Sahibkarlara verilən güzəştli kreditlərin həcminin gələn il 300 milyon manat olacağını deyən prezident İlham Əliyev 2013-cü ildə büdcə xərclərinin 20 milyard manat, icmal büdcənin 30 milyard dollardan çox olacağını deyib. Dövlət investisiya proqramının bu ilin sonuna qədər qəbul olunmasının vacibliyini deyən dövlət başçısı ölkədə qaz hasilatının artdığını, "Ümid" yatağından qazın hasilatına başlandığını deyib və bir daha TransAnadolu qaz kəməri layihəsinin əhəmiyyətinə toxunub.

Prezident İlham Əliyev ölkədə nəqliyyat infrastrukturunun daha da genişləndirilməsi, sənayeləşmə prosesinin, Bakı və ətraf qəsəbələrin inkişafının sürətləndirilməsinin əhəmiyyətinə toxunub. Dövlət başçısı bu yaxınlarda ölkəmizdə keçirilən 2-ci Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyətindən danışıb, onun yekunlarının səmərəli olduğunu deyib və Azərbaycanın uğurlarını bundan sonra da davam etdirəcəyinə əminliyini bildirib.

# Sumqayıtda yeni Peşə Tədris Mərkəzi açılacaq



Gələn il Sumqayıt Kimya Sənaye Parkının nəzdində Peşə Tədris Mərkəzi fəaliyyətə başlayacaq. Bunu "525"ə açıqlamasında təhsil naziri Misir Mərdanov deyib. Təhsil naziri bildirib ki, Sumqayıt Kimya Sənaye Parkının nəzdində Peşə Tədris Mərkəzinin yaradılması layihəsi çərçivəsində artıq müəyyən işlər görülüb. M.Mərdanovun sözlərinə görə, Sumqayıt Kimya Sənaye Parkının nəzdində Peşə Tədris Mərkəzinin yaradılması layihəsinin icrası istiqamətində İqtisadi İnkişaf Nazirliyi ilə birgə müvafiq müzakirələr aparılıb və hazırlanmış təkliflər Nazirlər Kabinetinə təqdim olunub: "Gələn il Sumqayıt Kimya Sənaye Parkının nəzdində Peşə Tədris Mərkəzinin fəaliyyətə başlaması nəzərdə tutulub. Bunun üçün hazırlıq tədbirlərinin dəqiq şəkildə müəyyənləşdirilməsinin və müvafiq işçi qrupunun yaradılmasının zəruriliyi yaranıb".

**S.QARAYEVA**

# *Fəzail Ağamalı:* "Hesablama Palatasının səlahiyyətləri artırılmalıdır"



"Hesablama Palatası əslində bütün ölkələrdə olduğu kimi, bizdə də parlamentin nəzdində yaradılıb. Çünki büdcəni təsdiq edən parlamentdir və parlament də öz səlahiyyətləri çərçivəsində təsdiq etdiyi büdcəyə nəzarət etmək hüququna malikdir". Bunu mətbuata açıqlamasında millət vəkili Fəzail Ağamalı parlamentdə Hesablama Palatasının səlahiyyətlərinin artırılması və yaxud da, Hesablama Palatasının Milli Məclisdən kənar bir qurum kimi formalaşdırılması, həmçinin, bütün nazirlərin ayrıca hesabatlarının dinlənilməsi yönündə səsləndirilən təkliflərə münasibətini bildirərkən dilə gətirib.

Millət vəkili qeyd edib ki, parlament büdcəyə nəzarət məsələsini də ancaq Hesablama Palatası vasitəsilə həyata keçirə bilər və bilir. Onun sözlərinə görə, burada kifayət qədər əlaqə və məntiq də var: "Ancaq bir məsələ də var ki, Hesablama Palatası, təbii ki, bir sıra hallarda ona verilmiş olan səlahiyyətlərin məhdudluğu ucbatından heç də gözlənilən nəticələri ortalığa qoya bilmir. Məncə, Hesablama Palatasının bütün hallarda səlahiyyətləri artırılmalıdır. Lakin o, hüquq-mühafizə orqanı, hüquq-mühafizə funksiyasını yerinə yetirməli deyil".

F.Ağamalı eyni zamanda bildirib ki, Hesablama Palatası, Heydər Əsədov bu quruma sədr vəzifəsinə gəldikdən sonra nüfuzunu da, fəaliyyətini də kifayət qədər artıra bilib: "Onun vermiş olduğu hesabatlar da sübut edir ki, belə bir institut artıq Azərbaycanda tam formalaşıb və bəzi məsələlərdə düşünürəm ki, onun səlahiyyətlərini artırmağa duyulur. Qaldı ki bütün nazirlərin Milli Məclis qarşısında ayrıca hesabatına, bu, bütövlükdə hökumət səviyyəsində həyata keçirilir. Yəni, Nazirlər Kabineti hər ilin mart ayında Milli Məclisin qarşısında bütövlükdə hökumət olaraq — hökumətə daxil olan bütün nazirlərin özü də daxil olmaqla — hesabatını verir.

Bu baxımdan, ayrı-ayrı nazirlərin ayrılıqda Milli Məclisə hesabat verməsinə də məncə, ehtiyac yoxdur. Çünki bir daha deyirəm, bu hesabat hökumət səviyyəsində verilir və hər bir nazirin də fəaliyyətinə orada ayrıca toxunmaq, onun fəaliyyətini ayrıca təhlil etmək imkanları var. Və bu Milli Məclisin səlahiyyətində olan məsələdir, bunun üçün hər hansı məhdudiyyət də yoxdur".

**KAMİL**

# "Təhqiramiz fikrə və hərəkətə yol verənlərin yanlış yolda olduğunu düşünürəm"

## BAHAR MURADOVA HESAB EDİR Kİ, "MANDAT ALVERİ"NƏ CƏHDLƏR BUNDAN SONRA DA OLACAQ

"Hər kəsin "videoqalmaqal" olayına öz prizmasından olan bir münasibəti və eyni zamanda, hamının da ümumi bir münasibəti var. Bu münasibət də ortadadır və müvafiq hüquq-mühafizə orqanları da bununla bağlı öz işlərini görürlər". Bunu "525"-ə açıqlamasında Milli Məclis (MM) sədrinin müavini, Yeni Azərbaycan Partiyası (YAP) icra katibinin müavini Bahar Muradova məlum "videoqalmaqal"la bağlı sabiq millət vəkili Gülər Əhmədovanın hakim partiyanın icra katibi Əli Əhmədovun ünvanına səsləndirdiyi təhqiramiz fikirlərə münasibətini bildirərkən dilə gətirib. Vitse-spikerin dediyinə görə, hazırda "videoqalmaqal"la əlaqədar istintaq gedir və belə düşünür ki, həm mətbuatımız, həm ictimai-siyasi xadimlərimiz, həm də məlum qalmaqalın iştirakçısı olan tərəflər maraqlı olmalıdırlar ki, istintaqın gedişinə mane ola biləcək hər hansı bir açıqlamaya, hansısa bir hərəkətə, hansısa bir fəaliyyətə yol verilməsin:

"Şəxsən mənim qənaətim belədir. O ki qaldı kimisə təhqir olunmasına, istənilən halda təhqir edənin, təhqiramiz fikrə və hərəkətə yol verənlərin yanlış yolda olduğunu düşünürəm. Bu, heç də işin xeyrinə deyil, gedən proseslər də onu göstərir, bu, işin xeyrinə deyil. Əgər yaxşı bir fikir söyləyə bilmirsənsə, o zaman pis fikri söyləməməyin də tərəfdarıyam. Yaxud da, əgər istəmirsənsə, digər fikirlərini özündə saxlamağın tərəfdarıyam. Çünki kimsə düşünməsin ki, bu, təkcə onun məsələsidir. Bu, ümumi bir məsələdir və vətəndaşlar da sıravi, adi azərbaycanlı da bu prosesi izləyir, eyni zamanda, kənardan bu prosesi müşahidə edən dairələr var. Ona görə onların əlinə hər hansı bir bəhanə vermək və



məsələni başqa istiqamətə yönəltmək, başqa maraqlar müstəvisinə gətirməyə imkan vermək olmaz. Mənim mövqeyim bundan ibarətdir, həm də düşünürəm ki, qalmaqal iştirakçısı olanların fəaliyyəti və danışıqlarından çox şey asılıdır".

"Bilirsiniz, "mandat alveri" absurd məsələdir. Məlum "videoqalmaqal" hadisəsinin özü də göstərir ki, bu "alver" alınmayıb". Bunu isə B. Muradova məlum "videoqalmaql"dan sonra ölkədə hər parlament seçkisi zamanı mandat alverinin getməsi barədə səslənən iddialara münasibətini bildirərkən qeyd edib. Vitse-spiker eyni zamanda deyib ki, bu günə kimi buna cəhdlər olub və əmindir ki, bundan sonra da kimlərsə buna cəhdlər edəcək. Onun dediyinə görə, çünki bu, günümüzün reallığıdır ki, heç də hər kəs hər zaman özünün layiq olduğuna və bacardığına qane olmur: "Hər kəs düşünür ki, o, daha artığını əldə edə bilər, etməlidir və bunun da müxtəlif yollarını arayır. Düz adam düz yolla gedir, əyri adam isə əyri yollarla gedir. Əyri yollarla bəlkə də harasa qədər getmək olar. Amma mütləq düz onu kəsəcək. Ona görə də bunun ətrafında ajiotaj yaratmağın tərəfdarı deyiləm, bunu "baxın, görürsünüz, biz deyirdik ki, Azərbaycanda parlament belə formalaşıb"- deyə, fikir söyləyənlərin saman çöpündən yapışması kimi qəbul edirəm". B. Muradova həmçinin bildirib ki, bu kimi fikirlərin də qətiyyən, Azərbaycan parlamentinə aidiyyəti yoxdur: "Şəxsən seçki prosesində 3 dəfə iştirak edən insan, Yeni Azərbaycan Partiyasının namizədi , nümayəndəsi, parlamentə seçilmiş şəxsi kimi tam qətiyyətlə söyləyirəm ki, hakim partiyanın sıralarından seçilən və Milli Məclisdə təmsil olunan digər insanlar bu cür yollarla yox, seçki qanunvericiliyinin müəyyən etdiyi prosedurlara əməl edərək, qabiliyyətlərini, bacarıqlarını, peşəkarlıqlarını sübut edərək gəlib bu mövqeni tutublar.Yəni, hər kəsə yalnız onun özünün fəaliyyətinə görə qiymət vermək lazımdır. "Videoqalmaqal"dan göründü ki, bu "alver" alınmayıb və hara qədər gəlibsə, o yol istintaq orqanları tərəfindən keçiləcək və ona obyektiv qiymət veriləcək. Hər kəs də öz hərəkətinə, öz əməlinə görə adekvat cəzasını alacaq. Mən əminəm ki, həmin gün hər kəs ədalətin təntənəsinin şahidi olacaq".

**Kamil HƏMZƏOĞLU**

# *Qurban Yetirmişli:* "Şamaxı-İsmayıllı bölgəsində güclü təkan ətrafdakı zəlzələ ocaqlarını oyatmaq imkanına malikdir"

## "SON YERALTI TƏKANLARDAN SONRA QIRILMALAR BOYUNCA YENİ TƏKANLAR OLACAQ"

"Şamaxı-İsmayıllı bölgəsində güclü təkanın olması ətrafda olan zəlzələ ocaqlarını oyatmaq imkanına malikdir".

APA-nın məlumatına görə, bunu Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli ölkədə baş verən son seysmik proseslərlə bağlı keçirdiyi mətbuat konfransında bildirib.

Onun sözlərinə görə, Mərkəzin son illərdə apardığı bütün araşdırmaların nəticəsinə əsasən, Azərbaycanda seysmoloji bölgələrin ən aktivi Şamaxı-İsmayıllı zonasıdır: "Bu zona gərgin olaraq qalır. Oktyabrın 7-də baş verən zəlzələ zəif deyildi. 40 kilometr dərinlikdə olduğuna görə, bu zəlzələ əksər rayonlarda hiss olunsa da, dağıntı yaratmadı. Müqayisə üçün deyim ki, Zaqatalada baş verən zəlzələ elə təxminən bu gücdə — 5,6-5,7 maqnitudada olmuşdu. Lakin dərinliyi 8-10 kilometr olduğundan dağıntı yaratdı. Dünən Şamaxıda, bu gecə Mingəçevirdə baş verən zəlzələlərin olması təbiidir. Çünki zona gərgindir və aktivlik davam edir. Güclü təkanın olması ətrafda olan zəlzələ ocaqlarını oyatmaq imkanına malikdir. Bu təkanlardan sonra qırılmalar boyunca təkanlar olacaq".

# İran və azərbaycanlı məhkumların öz ölkələrinə verilməsi məsələsi müzakirə olunub

İran İslam Respublikasının Bakıdakı konsulu Seyidmovsen Mövlayi və konsulluğun əməkdaşı Əlimirzə Əlimirzəyev ədliyyə nazirinin müavini, Penitensiar Cidmətin rəisi Mədət Quliyevlə görüşüblər. Penitensiar Xidmətin ictimaiyyətlə əlaqələr şöbəsindən APA-ya verilən məlumata görə, görüşdə Azərbaycan və İran arasında məhkumların cəzalarının qalan hissəsini çəkmək üçün vətəndaşları olduqları ölkəyə verilməsi sahəsində görüləcək işlər barədə müzakirələr aparılıb.

M. Quliyev hər iki ölkənin məhkumların vətəndaşı olduqları ölkəyə verilməsi ilə bağlı beynəlxalq konvensiyalara qoşulduğunu, eyni zamanda iki ölkə arasında analoji sazişin mövcud olduğunu deyib. Məhz bu hüquqi baza əsasında məhkum edilmiş şəxslərin öz ölkələrinə verilmələri sahəsində işlərin təkmilləşdirilməsi barədə fikir mübadiləsi aparılıb və ortaya çıxan problemlərin operativ müzakirəsi məqsədilə mütəmadi olaraq görüşlərin keçirilməsi məqsədəmüvafiq hesab olunub.

S. Mövlayi Azərbaycanın cəzaçəkmə müəssisələrindəki İran vətəndaşlarının saxlanma şəraitindən, eləcə də onlarla mütəmadi görüş üçün səfirlik əməkdaşlarına yaradılmış şəraitdən məmnun olduqlarını ifadə edib.

# Kiyevdə GUAM-ın 15 illik yubileyi keçirildi

## YUBİLEY İCLASINA AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ SƏDRLİK EDİB

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov GUAM-ın 15 illik yubileyinə həsr olunmuş iclasda iştirak etmək üçün Ukraynaya gedib. APA-nın məlumatına görə, XİN başçısı dünən Kiyevdə GUAM Xarici İşlər Nazirləri Şurasının iclasında iştirak edib. İclasa GUAM-ın tərəfdaşları ABŞ və Yaponiyanın, həmçinin Avropa Komissiyasının nümayəndələri də qatılıb. Tədbirdə GUAM qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsi məsələləri müzakirə olunub. İclasa Azərbaycanın xarici işlər naziri sədrlik edib.

# BŞİH İctimai Palataya Bibiheybəti təklif etdi

Bakı Şəhər İcra Hakimiyyəti İctimai Palatanın (İP) paytaxtda oktyabrın 13-də yürüş keçirməsi ilə bağlı müraciətini cavablandırıb.

APA-nın məlumatına görə, şəhər rəhbərliyi göstərilən tarixdə parlamentin buraxılması və qanunverici orqana yeni seçkilərin keçirilməsi tələbi ilə yürüş keçirilməsini məqsədəuyğun hesab etməyib, əvəzində İP-ə Səbail rayonu Bibiheybət qəsəbəsi, 20-ci sahə, Sürücülük Məktəbinin həyətindəki meydançada mitinq keçirilməsini təklif edib.

Qeyd edək ki, İP oktyabrın 13-də saat 16.00-dan 18.00-a qədər olan müddətdə Bakının keçmiş Əzizbəyov heykəlinin qarşısından Parlament prospekti ilə Milli Məclisin qarşısınadək yürüş keçirilməsi ilə bağlı paytaxt meriyasına müraciət edib.

# *Faiq Şahbazlı:* "Dərsliklərin bazarlarda pulla satılması bəzi hallarda məqsədəuyğundur"

"Bəzi hallarda dərsliklərə yaranan ehtiyacın ödənməsi üçün dərsliklərin müəyyən məbləğdə pulla satılması mümkündür" Bunu "525"ə açıqlamasında Təhsil Nazirliyinin dərslik və nəşriyyat şöbəsinin müdiri Faiq Şahbazlı deyib. O bildirib ki, hər il respublikanın orta məktəblərində təhsil alan şagirdlərin sayı qədər dərsliklər dövlət hesabına çap olunaraq pulsuz şəkildə paylanılır. Ancaq bununla yanaşı müəyyən qiymət qoyulan dərsliklərin bazarlarda pulla satılması bəzi hallarda məqsədəuyğundur: "Orta məktəb müəllimləri üçün bu dərsliklər pulsuz hazırlanmır. Belə olduğu halda müəllimlər, ali məktəblərə hazırlaşan abituriyentlər, ali məktəblərdə əyani pedaqoji təcrübəyə gedənlər bu dərsliyi hardan almalıdırlar? Buna görə də nəşriyyat-poliqrafiya müəssisələri bu dərslikləri öz vəsaitləri hesabına çap edərək pulla satırlar". Pullu kitabların qiymətinin nəyə əsasən müəyyənləşdirməsinə gəlincə F.Şahbazlı əlavə edib ki, nəşriyyat-poliqrafiya müəssisəsi öz malını bazara çıxararkən müəyyən qiymət təyin edir və ona uyğun da satır. Saxta dərsliklər məsələsinə gəlincə, şöbə müdiri deyib ki, bu məsələ elə də gündəmdə deyil. Onun szölərinə görə, nəşriyyat poliqrafiya müəssisələri kifayət qədər vəsaitlərini bazara çıxarırlar. Lakin hər bir halda saxta yolla çap olunan dərsliklər rənglərinin solğunluğu, səhifələrin keyfiyyətsiz olması ilə seçilir.

**S.QARAYEVA**

# Los-Ancelesdəki Baş Konsulluğumuz ABŞ-da Azərbaycan haqda kitab nəşr etdirib

Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğu ABŞ-da ingilis dilində Azərbaycan haqda kitab nəşr etdirib. Konsulluqdan APA-ya verilən məlumata görə, nəfis tərtibatda nəşr edilmiş, 120 səhifədən ibarət olan və "Azerbaijan — Embracing the Future" (Azərbaycan — Gələcəyi Qurarkən) adlanan kitabda Azərbaycanın coğrafiyası, zəngin tarixi, mədəniyyəti və incəsənəti, güclü etnik və dini tolerantlıq ənənələri, dövlət quruluşu və xarici siyasəti, sürətli iqtisadi inkişafı, turizm potensialı, Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalı və digər maraq kəsb edən mövzular barədə geniş məlumatlar öz əksini tapıb. Bakı şəhərinin və ölkəmizin müxtəlif gözəl guşələrinin rəngarəng şəkilləri kitabın müxtəlif bölmələrini bəzəyir.

Kitabın ABŞ-da hökumət və qeyri-hökumət qurumları, biznes dairələri, elm, təhsil və mədəniyyət ocaqları, KİV-lər, eləcə də digər təşkilatlar və şəxslərə göndərilməsi nəzərdə tutulur.

# Şəbnəm



*Vahid QAZİ*

Bilmirəm Leyli, Əsli, Cülyetta, adı yazılara düşməyib dillərdə gəzən min-min başqa sevgi qəhrəmanı nə vaxt yaşayıb. Yaşayıbmı? Bəlkə də kişi şair-aşiqlərin arzusuymuş bu qadınlar...

Amma mən sevdalanmış bir qız görmüşəm, XXI əsrdə yaşayır. Və heç bir kişi şair-aşiqin fantaziyası deyil. Dastanını özü yazıb!

Yad ölkənin həbsxanasına düşən qərib bir oğlana aşiq olan, illərlə cəfasını çəkən, aldığı maaşdan bilet pulu düzəldən, yol alıb ölkələr keçən, min bir minnətlə görüş alan, ətrafın tənəli baxışlarından bir an belə inadını əyməyən qız. Tay-tuş qızlar sevgini dəbdəbəli malikanədə, göz qamaşdıran həyatda, yüksək karyera vəd verən vəzifəli oğlanlarda axtaranda o, qərib bir ölkənin həbsxana küncündə tapmışdı.

Hamının ümidi kəsilən yerdə başlayırdı onun inamı! İnadı polad parçasını belə əyərdi qızın.

"Ramil Səfərov!!!" qışqıranlar yorulub çəkiləndə ziyarətçiləri dağılışan yas otağına bənzəyən tənhalıqdan qorxmayan gördüm onu!

Özünü, hərəkətlərini dərk eləməyə macal tapmamış onun qəlbini kəşf elədim bir gün. Kitabım haqda "Yaşıl paltolu xatirə"sini oxuyanda bu balacaboy insanın qəlbinin ölçülərinə heyran qaldım. Qarşımda sərhədləri ulduzlardan ulduzlaracan uzanan bir qızcığazın qəlbiydi açılan — dibinə dəryaların, dərinliyinə göylərin həsəd apardığı bir qəlb.

Dünən o qızcığazın toyuydu!

Viktor Hüqo "Səfillər"ində yazırdı: "Dünyada bircə nəfər də olsa sevən adam tapılmasaydı, günəş sönərdi". Dünən günəşi sönməyə qoymayan sevdalı bir qızın toyuydu!

Leyli, Əsli, Cülyetta, adı yazılara düşməyib dillərdə gəzən min-min nakam sevgi qəhrəmanı əsrlərin o üzündən bu toya boylanıb sevinc yaşı axıdırdı. Bəxtləri açılmışdı!

Günəş də ilk yol doğduğu gün kimiydi, gülürdü bu səhər...

**10 oktyabr 2012**

**P.S.** Buyurun, bu da Şəbnəmin "Yaşıl paltolu xatirəsi"...

## Yaşıl paltolu xatirə

*Şəbnəm GÜLMƏMMƏDOVA*

İllər öncə bir filmə baxmışdım. Yaşlı adam evə dönəndə otaqda balaca bir uşaq görür... və bu uşaq onun öz keçmişiydi...

Ağdam barədə son xatirəm o qədər də xoş deyil. Yaşıl palto geyinmişdim, əlimdə xırda çiçək naxışlı dəsmal varıydı, dayanmadan ağlayırdım. Göz yaşlarım qarşıdakı uzun illərdə məhrum olacağım, bir udum havasını belə içimə doyunca çəkə bilməyəcəyim Yurd üçün deyildi, balaca oyuncaq vedrəmə görəydi. Həmişə çox sevdiyim çiçəkləri suladığım bu oyuncaq vedrəni götürməmiş heç yerə getmək istəmirdim.

İllər keçdi, ağlım kəsməyə başlayandan doğulduğum torpağın nə demək olduğunu anladım. Amma geciydi, minlərlə yaşıdım kimi mənim də keçmişim bir göz qırpımında silinib getmişdi. Keçmişimə, gəldiyim yerə aid əlimdə bircə sübut, əşya belə qalmamışdı. O zaman öz-özümə fikirləşdim ki, bəlkə də o oyuncaq vedrə üçün canfəşanlığım keçmişimdən kiçik də olsa bir parça qoparmaq cəhdiydi.

...Və minlərlə insan kimi mən də keçmişimin parçalarını hissə-hissə toplamağa başladım.

Tam mübaliğəsiz, pafosdan uzaq bir etiraf edirəm: Vahid Qazinin "Ruhlar şəhəri" kitabı bu hissələri toplamağıma əvəzsiz imkan yaratdı.

Doğulub vur-tut bir-iki bahar yaşadığım Yurdu küçə-küçə, ev-ev, insan-insan gəzdim.

Uşaqlığımdan tək nişanə qalan şəklimin çəkildiyi "28 aprel" küçəsindən keçdim, beynimdə adını dəyişib "28 may" qoydum.

Ağdam kinoteatrında yerli ləhcəylə dublyaj olunan bir filmə baxdım, xeyli güldüm.

Ağdamda yandırılan Novruz tonqalından hoppanıb, heç vaxt ciddi saymadığım qulaq falına indi həvəslə çıxdım.

Ağdam stadionundakı azarkeşlərlə birgə şəhərimizin futbol komandasını dəstəkləyib, onların həyəcanını bölüşdüm.

Partalarında oturmadığım məktəbləri sinif-sinif gəzdim, təlim-tərbiyələrindən məhrum olduğum müəllimləri salamladım.

Nəhayət, gəlib "Xəyal memarı"na yetişdim. Kitabdakı sonuncu bu esse "səyahət"imin ən tükürpədici hissəsiydi. Axı şəhərimizi eyni formada, 19 il öncə olduğu kimi necə yenidən tikmək olar? Bizə yol göstərəcək bircə bina, ev, küçə hətta məzar daşı belə yoxkən...

Amma biz bunu edəcəyik! Ağdamı xəyallarımızdakı, arzularımızdakı kimi quracağıq.

Bu kiçik esselərdən ibarət kitab mənimçün sadəcə bir kitab yox, DƏYƏR oldu. Bir daha anladım ki, mənimçün Vətən anlayışı doğulduğum yerdən, ilk nəfəsimi var gücümlə çəkib udduğum havadan, ilk addımımı atdığım torpaqdan başlayır və Vahid bəyə məni böyük Vətənimin — Azərbaycanımın mənə ən şirin, ən doğma yerinə apardığı üçün təşəkkür edirəm.

Qoy bizim gələcək nəsillərimizin bütöv keçmişi və Qarabağlı gələcəyi olsun!

**18 yanvar 2012**

## BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının 63-cü sessiyası başa çatıb

### SESSİYADA BAŞ NAZİRİN MÜAVİNİ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ İLƏ BAĞLI ÇIXIŞ EDİB

Cenevrədə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK) İcraiyyə Komitəsinin 63-cü sessiyası başa çatıb. BMT-nin Azərbaycan nümayəndəliyindən qəzetimizə verilən məlumata görə, sessiyada 87 üzv dövlət təmsil olunmaqla yanaşı, müşahidəçi qismində İcraiyyə Komitəsinin üzvü olmayan ölkələrin nümayəndələri, BMT-nin ixtisaslaşmış qurumları və nüfuzlu beynəlxalq təşkilatların, o cümlədən qeyri-hökumət təşkilatlarının təmsilçiləri iştirak edib. BMT-nin qaçqınlar üzrə ali komissarı Antonio Quterreş sessiyanı açaraq gündəlikdəki məsələlərdən danışıb, ötən sessiyadan sonra görülmüş işlər və qarşıda duran vəzifələr haqqında məlumat verib.

Ümumi müzakirələrdən əvvəl BMT-nin Dünya Ərzaq Proqramının icraçı direktoru xanım Ertarin Kuzinin çıxışı dinlənilib. Sonra üzv dövlətləri təmsil edən nümayəndə heyətlərinin rəhbərləri çıxış ediblər. Sessiyada bir sıra ölkələrin (Kanada, Türkiyə, Əlcəzair, Sudan, Cibuti, Portuqaliya, Pakistan, Moldova, Kosta-Rika, Efiopiya, Tanzaniya və s.) təmsilçiləri çıxışlarında Azərbaycanı BMT QAK-ın İcraiyyə Komitəsinin üzvləri sırasında görməkdən məmnun olduqlarını bildirərək bu münasibətlə ölkəmizin nümayəndə heyətini təbrik ediblər. Tədbirdə baş nazirin müavini Əli Həsənov çıxış edərək Ermənistanın yürütdüyü işğalçılıq və etnik təmizləmə siyasətinin nəticəsi olaraq ərazilərimizin 20 faizinin işğalı, 1 milyon qaçqın və məcburi köçkün problemi, ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin məqsədyönlü fəaliyyətləri nəticəsində ölkəmizdə bərqərar olmuş siyasi sabitlik, uğurlu iqtisadi islahatların qaçqın və məcburi köçkünlərin də həyat şəraitinin yaxşılaşdırılmasına əlverişli imkan yaratması, bu qəbildən olan insanlar üçün dövlətimiz tərəfindən həyata keçirilən genişmiqyaslı tədbirlər, mövcud ehtiyaclar barədə tədbir iştirakçılarına geniş məlumat verib. Ə. Həsənov, eyni zamanda, bu problemin yeganə həllinin Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi və məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmaları olduğunu bildirərək, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin və beynəlxalq birliyin tələblərinin yerinə yetirilməsinin onların hüquqlarının hərtərəfli təminatı üçün son dərəcə vacib olduğunu qeyd edib və beynəlxalq birliyi məsələdə ədalətli mövqe nümayiş etdirməyə, yalnız humanitar xarakterli fəaliyyətlə kifayətlənməyərək, problemi doğuran səbəblərin aradan qaldırılması üçün zəruri siyasi addımlar atmağa çağırıb. Müzakirələrə yekun vuran və çıxışlarda qaldırılan məsələlərə öz münasibətini bildirən ali komissar Antonio Quterreş Azərbaycan dövlətinin qaçqın və məcburi köçkünlərlə bağlı gördüyü işləri yüksək qiymətləndirib. Antonio Quterreş qaçqın və məcburi köçkünlərə yardım etməyən ölkələrin mövcud olduğunu, onların öz yurdlarından didərgin düşmüş insanların acınacaqlı vəziyyətini dünyaya nümayiş etdirməklə siyasi məqsədlərə nail olmağa çalışdıqlarını, bundan fərqli olaraq, Azərbaycan hökumətinin məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması üçün nümunəvi tədbirlər həyata keçirdiyini, BMT QAK-ın bunu alqışladığını və münaqişə həll edildikdən sonra könüllü qayıdışın mümkün olduğunu diqqətə çatdırıb. BMT QAK İcraiyyə Komitəsinin 63-cü sessiyası çərçivəsində təşkilatın büdcəsi, idarəçilik, maliyyə və inzibati nəzarət ilə bağlı müvafiq qərarlar, həmçinin İcraiyyə Komitəsinin 2012-2013-cü illər üçün dəyişikliklər edilmiş büdcəsi qəbul olunub. Bundan əlavə, "Qeyri — hökumət təşkilatları ilə illik müzakirələr" adlı sənədə baxılmış, eləcə də İcraiyyə Komitəsinin 64-cü sessiyasının ilkin gündəliyi razılaşdırılıb. Tədbir rəsmi olaraq İcraiyyə Komitəsinin 63-cü sessiyasının hesabatının qəbul edilməsi ilə başa çatıb.

Qeyd edək ki, hər il olduğu kimi, bu dəfə də İcraiyyə Komitəsinin iclası günlərində Nansen Qaçqın Mükafatının təqdim olunması mərasimi keçirilib. 2012-ci ildə Nansen Qaçqın Mükafatına uzun illər Somalidə olan qaçqınlar üçün göstərdiyi humanitar xidmətlərə görə Sülh və İnkişaf Naminə Qalkaya Təhsil Mərkəzinin direktoru xanım Hava Aden Mohammed (Puntlənd, şimal-şərqi Somali) layiq görülüb. BMT QAK-ın İcraiyyə Komitəsinin növbəti il üçün sədr və məruzəçisi müəyyənləşib. Belə ki, BMT QAK İcraiyyə Komitəsinin növbəti dövr üçün sədri Kolumbiya, məruzəçisi isə Mərakeş seçilib.

**S.MÜRVƏTQIZI**

## Ombudsman BMT-nin nümayəndəsi ilə görüşüb

İnsan Hüquqları üzrə Müvəkkil Elmira Süleymanova BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK) Azərbaycandakı nümayəndəsi Daq Siqurdsonu qəbul edib. Ombudsman Aparatının mətbuat xidmətindən verilən məlumata görə, görüşdə Ombudsmanla BMT QAK arasında qaçqın və məcburi köçkünlərin hüquqlarının müdafiəsi üzrə əməkdaşlığın davam etdirilməsi və daha da genişləndirilməsi, gələcək fəaliyyət perspektivləri haqqında fikir mübadiləsi aparılıb. Müvəkkil Ermənistanın Azərbaycana qarşı iyirmi ildən artıq müddətdə davam edən təcavüzü nəticəsində məcburi köçkünlərin pozulmuş hüquqlarının müdafiəsinin ölkədə prioritet problem olduğunu, doğma ocaqlarından didərgin salınmış soydaşlarımızın bütün qayğılarının dövlətin gündəlik qayğısına çevrildiyini söyləyib, bu gün respublika əhalisinin hər 8-9 nəfərdən birinin qaçqın və ya məcburi köçkün olduğunu vurğulayıb. Ombudsman Azərbaycan hökuməti tərəfindən əhalinin bu həssas təbəqəsinə göstərilən diqqətə, onların sosial müdafiəsi və həyat şəraitinin yaxşılaşdırılması istiqamətində mərhələli qaydada həm hüquqi baxımdan, həm də sosial-iqtisadi sahədə davamlı olaraq mühüm işlər görülməsinə, məcburi köçkünlərin müvəqqəti məskunlaşması üçün onların müasir tələblərə cavab verən, yeni salınmış, tam infrastrukturlu qəsəbələrə köçürülmələrinə baxmayaraq, məcburi köçkünlərin hələ də çətinliklərlə üzləşdiklərini və öz doğma torpaqlarına qayıtmalarını səbirsizliklə gözlədiklərini bildirib. E.Süleymanova məcburi köçkünlərin məskunlaşdığı qəsəbələrə tez-tez səfərlər etdiyini, onların məişət şəraiti, həmçinin tibb xidmətlərinin təşkili, bu qəbildən olan ailələrdə böyüyən uşaqların təhsili vəziyyətini və digər məsələləri öyrəndiyini, həmin görüşlər zamanı bu qəsəbələrdəki uşaq bağçaları və məktəblərdə olan problemlərin həlli ilə bağlı səlahiyyətli dövlət orqanlarına təkliflər verdiyini, öz illik məruzələrində ölkədə bu istiqamətdə real vəziyyəti təhlil edərək, məsələ qaldırdığını və müsbət nəticələr əldə olunduğunu deyib. Müvəkkil yurd-yuvalarından didərgin düşmüş soydaşlarımızın öz torpaqlarına təhlükəsiz dönməsinin, onlara psixoloji və hüquqi yardımların göstərilməsinin, eyni zamanda məcburi köçkünlərin hüquqi müdafiəsinin zəruriliyini diqqətə çatdıraraq məcburi köçkün uşaqların normal böyüməsi üçün sağlam mühitin yaradılmasının, cəbhə bölgəsində yaşamış, stress keçirmiş uşaqların və yeniyetmələrin psixoloji cəhətdən düzgün formalaşdırılmasının vacibliyini, yeni qəsəbələrdə məktəbəqədər yaşlı uşaqlar üçün tərbiyə kompleksləri və reabilitasiya mərkəzlərinin yaradılmasının, məktəblərin tədris vəsaitləri ilə təchiz olunmasının zəruriliyini söyləyib. Müvəkkil BMT QAK-ın Azərbaycandakı nümayəndəliyinin repatriasiyaya hazırlıq prosesinə fəal qoşulmasını, bununla bağlı müvafiq layihələrin həyata keçirilməsinə dəstək verməsinin zəruriliyini deyib.

D.Siqurdson son illərdə Azərbaycanda qaçqın və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması, bu qəbildən olan əhalinin hüquqi müdafiəsinin möhkəmləndirilməsi, problemlərinin həlli istiqamətində mühüm işlər görüldüyünü və bunun isə dünyanın oxşar problemi ilə qarşılaşan əksər ölkələr üçün nümunə olduğunu bildirib. O, Müvəkkilin bu sahədə fəaliyyətini yüksək qiymətləndirərək, Ombudsman təsisatı ilə əməkdaşlıqda maraqlı olduğunu qeyd edib, qarşılıqlı əlaqələrin əhəmiyyətini vurğulayıb.

Qonaq ötən həftə Cenevrədə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı İcraiyyə Komitəsinin 63-cü sessiyasında iştirakı, bu mötəbər tədbirdə irəli sürülmüş vəzifələr barədə məlumat verib, Azərbaycanın bu ilin aprelində BMT QAK-ın İcraiyyə Komitəsinə üzv seçilməsindən məmnunluğunu ifadə edib, təmsil etdiyi qurumun qaçqınlar, məcburi köçkünlər, miqrantlarla apardığı işlər, onların hüquqlarının təmin edilməsi, qaçqınların problemlərinə kömək məqsədilə nəzərdə tutulan layihələr barədə danışıb.

E.Süleymanova birgə əməkdaşlığın zəruriliyini, məcburi köçkünlərin hüquqlarının müdafiəsinin, bu kateqoriyadan olan əhalinin hər bir fərdinə yaş və gender baxımından həssas yanaşmanın, natamam ailələrin, valideynlərini itirmiş uşaqların, ailəyə başçılıq edən dul qadınların problemlərinin həllinə diqqət göstərilməsinin, potensial imkanlarının səfərbər edilməsinin, yeni qəsəbələrdə maarifləndirmə məqsədilə birgə treninqlərin, həmçinin ixtisasartırma treninqlərinin keçirilməsinin, hüquqi nəşrlərin, Ombudsmanın insan hüquqları üzrə resurs mərkəzlərinin yaradılmasının, qaçqınların və məcburi köçkünlərin məskunlaşdığı yerlərdəki məktəb və uşaq bağçalarının, səhiyyə xidmətlərinin təkmilləşdirilməsinin, bu qəbildən olan əhalinin məskunlaşdığı qəsəbələrə davamlı səfərlərin, məcburi köçkün uşaqların təhsilə cəlb edilməsi problemlərinin həllinə daha çox diqqət yetirilməsinin, şəbəkə şəklində fəaliyyətin vacibliyini vurğulayıb.

**S.MÜRVƏTQIZI**

*Yaddaşımın küncündən...*

## "Bir həsirəm, bir Məmmədnəsir..." — gələcək prezident belə dedi...



*Şakir YAQUBOV*

Gününü uzun illər əminliklə sentyabrın 2-si söyləmişəm və belə də keçib gedib. Ancaq indi bu tarixə şübhə eləyirəm: doğrudanmı məhz həmin gün?! Axı indi həmin tarix çox böyük əhəmiyyət kəsb edir — ən azı ona görə ki, söhbət adi vətəndaşdan deyil, tarixi şəxsiyyətdən gedəcək.

Dəqiqləşdirirəm: həmin il — 1968-ci ildə sentyabrın 1-i bazar gününə təsadüf eləmişdi, biz — Azərbaycan Dövlət Universitetinin digər kurs tələbələri kimi 1-ci kurs tələbələri də dərs ilinə ertəsi gün — sentyabrın 2-də başlamışdıq. Həmin günün də tanışlıq-filana həsr olunduğunu nəzərə alsaq, deməli, mən indi müəyyən əminliklə ayın 3-dən bəhs etməliyəm...

✦✦✦

Dərslərimiz 2-ci növbədə olduğundan burası dəqiqdir ki, ilk dərsimiz artıq arxada qalmışdı və biz Asiya və Afrika ölkələrinin tarixi fənnindən mühazirə üçün hamılıqla birinci, əslində yarımzirzəmi mərtəbəyə enib fizika fakültəsinin rus sektoru tələbələrinin dərs keçdikləri auditoriyanın boşaldılmasını gözləyirdik.

Qapı açıldı və çölə çıxanlarla içəri doluşanların eyni vaxtda hərəkəti başlandı. İçəri doluşanları, yəni bizi başa düşmək olardı: BU BOYDA universitetdə ilk sanballı dərs günümüzdür və heç kim müəllimdən sonra auditoriyaya girməklə həm qoyulmuş daxili qaydanı pozmaq, həm də özü barədə konkret müəllimdə pis fikrin ("...intizamsızdır") yaranmasına bais olmaq istəmirdi.

Hər nəsə, ümumi axında sonuncudan axırıncılar sırasında auditoriyaya daxil olan qarayanız cavan oldu. Həmin o uzaq illərdə İSTİSNASIZ OLARAQ HƏR ŞEY indikindən fərqləndiyi kimi hava da bir ayrı cür idi: mənim yaddaşımda həmin qarayanız, qıvrım şəvə saçlı müəllim məhz yaxası açıq dəri pencək-gödəkcədə qalıb, indi həmin pencək-gödəkcəni ən yaxşı halda yəqin ki, 15-20 gündən sonra geyinərlər.

Auditoriya eləydi ki, sonuncu partalar giriş qapısının ağzına düşürdü, təbii ki, yazı taxtası, kafedra (müəllimin mühazirə oxuması üçün nəzərdə tutulmuş xitabət kürsüsü) və üzərində sinif (qrup) jurnalı qoyulan stol yuxarı başda idi. Dəri pencək-gödəkcəli hündürboy müəllim tələbə yoldaşlarımın yerbəyer olmasını cəmi bir dəqiqə, əllərini sinəsi bərabərliyində ovuclamış halda gözlədi, sonra sifətinə mənalı bir təbəssüm verərək özünü təqdim elədi:

— Şərqşünaslığı bitirmişəm. İnşallah, sizdə ilin sonunacan bu kursu aparacam... Maraqlandığınız qalan şeyləri də ordan-burdan öyrənə bilərsiniz...

Sonuncu kəlmələri lap mənalı-mənalı, burnunu bir az da yuxarıya dartmaqla söylədi və... qapı döyüldü. Müəllim: "Buyurun" söyləyəndə, demək olar, hamımız geriyə, qapıya tərəf boylandıq. İçəri arıq-arğaz, indiki meyarlarla baxanda kəndçifason bir rus qızı girdi, təbii bir utancaqlıqla: "Vı izvinite menya, veşşi moi ostalis zdes..." deyə üzrxahlıq elədi.

Yadımdadır, üç sıralı partaların orta sırasında, lap öndə, müəllimlə üzbəüz oturmuşdum, qız da unutduğu şeyləri dili və əli ilə məhz bizim partadan götürmək istədiyinə işarə eləyirdi. Müəllim, heç nə olmayıbmış kimi, sakitcə: "Buyurun" deyincə biz — ön partada oturanlar kəndçi (kəndçimi?) ağlı-düşüncəsiylə yer-yerdən: "Zdes", "Zdes", "Von zdes" deyə bağırışdıq. Qız əl çantasını, onunla yanaşı bir kitabını və daha nəyisə yığıb: "Blaqodaryu" deyərək auditoriyadan çıxanacan baxışlarımızla onu müşayiət elədik. Qapının örtülməyi ilə müəllimin ağzının açılmağı bir oldu (aradan 44 il keçib, indi də düşünürəm ki, o, həmin təhqiramiz sözləri məhz bizə, içi mən qarışıq, ön orta partada oturub canfəşanlıq edənlərə yox, hamıya ünvanladı):

— Tüpürüm sizin kişiliyinizə!.. Nə olub, ə? Nə matah iş olub? Bir rus "matişka"sı 20 nəfərlik, — (o vaxt qrupumuz tam formalaşmasa da, hər halda daha çox idik), — azərbaycanlının olduğu auditoriyaya, özü də Azərbaycan Dövlət Universitetinin auditoriyasına girir, azərbaycanca danışmaq əvəzinə öz dilində nəsə qırıldadır və həmin bu 20 nəfər də xornan ona "Zdes", "Zdes" deyə cavab verir. Ayıb deyilmi sizə? Siz bu ağılnan, düşüncəynən oxuyub Azərbaycanı ağ günə çıxarmaq istəyirsiniz?..

Mənimlə yanaşı oturmuş, özünü tarixdən hamıdan ağıllı bilən qubadlılı Oruc ayağa qalxıb üzrxahlıq eləməyə başladı, amma onun da üzrxahlığı guya müəllimin sözünün üstünə söz gətirməyimizə görə idi, müəllim isə tamam ayrı, lap ayrı şeylərdən danışırdı, dediyindən ən azı bunu anlamaq çətin deyildi ki, biz — Azərbaycan oğulları (məhz oğulları!) gərək dəstəynən bir rus "matişka"sının qabağında özümüzü sındırmayaydıq, çünki həmin "matişka" mahiyyət, "vid-fason" etibarilə buna layiq deyildi...

Müəllim isə sanki danışmağa mövzu tapmışdı:

— Azərbaycan Dövlət Universiteti dedim, üzr istəyirəm ifadəmə görə... Azərbaycan Dövlətsiz Universiteti! Dövlət universitetinin auditoriyası bu kökdə olmaz!.. — Sonra o, çoxumuzun adını ilk dəfə eşitdiyimiz bir neçə nəfərin adını çəkdi: — Vəzifələrini saxlamaq üçün Azərbaycanın Rusiyanın tərkibinə könüllü daxil olmasının 150 illiyini bayram elətdirdilər, halbuki bu, başdan-ayağa işğal faktıdır. İngiltərədəki dostlarımız bu məsələni BMT-də qaldırmağa hazırlaşdıqları vaxt bunlar burda bunu bayrama çevirdilər...

Müəllim alov püskürürdü, uşaqların hamısı bu qeyri-adi mühazirənin harda və necə bitəcəyini gözlədikləri məqamda müəllim stolun üstündəki jurnala işarə ilə:

— Kimdir "sinifkom"?

O, məhz "sinifkom" dedi, bizim bildiyimizsə "starosta" idi. Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini Növruzəli Zeynalovun oğlu, yaşına görə babat çəkiyə malik olan Namiq ayağa durdu, yəni ki, mən.

— Jurnalı həmişə özün doldurarsan, verərsən mən qollayaram. Sizə Asiya-Afrika ölkələrinin yox, lap əvvəl Azərbaycanın tarixini bilmək lazımdır. Hərçənd həmin ölkələrin tarixində də Azərbaycanla bağlı məqamlar yox deyil. Elə Misir tarixini götürək. "Barbarossa planı" deyirlər... Buna Avropa Barbarossa deyir, bunlar əslində iki qardaşdır — Baba Oruc və Xeyrəddin Barbarossa. XVI əsrdə bunlar bütün Şimali Afrikada nəhəng imperiya yaradıblar. Bunlar xalis türkdürlər!.. Hələ Tulunilər var, bunların dövləti var...

Dərsin ilk 45 dəqiqəsinin nə vaxt bitdiyini, zəngin nə vaxt çalındığını bizdən heç kim hiss eləməsə də müəllim ayıq imiş:

— Çıxın, siqaretimizi çəkək, sonra dərsimizi davam edərik...

Biz, 4-5 qatı siqaretçəkən həmin yarımzirzəmidən daha yuxarı mərtəbələrə qalxan pilləkənin altında yığışıb olanımızdan tüstülətməyə başlamağa girişəndə kimsə dirsəyimə toxundu. Çevriləndə müəllimi gördüm: "Nə çəkirsən?". O dövrün ən populyar, ucuzdan-ucuz siqaretinin — "Prima"nın adını çəkdim. "Birini ver" dedi müəllim. Bu, həmin gün 17 yaşlı bir kənd uşağının ikinci dəfə şoka düşməsi demək oldu: müəllim tələbəsindən (şagirdindən) siqaret istəyirdi! (Dünyada, görünür, heç nə izsiz ötüşmür, heç nə itmirmiş: düz 25 il sonra o, Azərbaycan Respublikası prezidentinin iqamətgahındakı balaca qəbul otağında "Marlboro" siqaretiylə "Prima"nın əvəzini çıxdı...)

Mən vəziyyətin məhrəmliyindən istifadə edərək canıyananlıq göstərmək istədim:

— Dediklərinizin hamısıynan şərikik, mahiyyətini dəqiq anlamasaq da, ürəyimizdən xəbər verir. Ancaq nəzərə alın ki, 20-25 nəfərlik bir dəstədə dostlarla yanaşı ürəyi istəməyənlər, çuğullar, satqınlar da ola bilər...

O, siqaretə dərin bir qullab vuraraq altdan-altdan gülümsədi:

— Boş şeydir. Mən Nil üstündəki Əsvanda, yəni sizin dillə Asuanda tərcüməçi işləyəndə Xruşşov ora gəlmişdi. Tikintidə olduğu bir neçə saat ərzində sovetlərdən gələnlər onun ayaqqabılarını yalayırdılar — hərə bir şey diləyirdi, o da əshabələrinə göstəriş verirdi ki, vətəndə bu xahişlər dərhal yerinə yetirilsin. Tək mən ehramlardan birinin kölgəsinə sığınıb özüm barədə, imperiya dövləti başçısının təbəələrinə verə biləcəyi sədəqənin mahiyyəti barədə düşünürdüm.

Yerli iş icraçısının gözü mənə sataşdı, dedi ki, bəs sən niyə bir şey xahiş eləmirsən? O vaxt dövlətin başçısından istənilməli iki şey vardı: ev və minik maşını. Mənimsə bunların heç birinə ehtiyacım yoxdu... Təxminən on beş il qabaq kənddən çıxıb Bakıya gələndə anamdan halallıq almışam, demişəm ki, ana, mən bu yola düşürəm — bunun tutulmağı var, şikəst edilməyi var, öldürülməyi var. Mənə südünü halal elə və hesab et ki, mən adda oğul dünyaya gətirməyibsən, o vaxt mənimlə bağlı ən ağır xəbəri də göz yaşı axıtmadan, mərdi-mərdanə qarşılaya bilərsən...

Bax, bu mənada bir həsir, bir Məmmədnəsir olanın nəyinə lazımdır ev, maşın?! Xruşşov oturduğum yerə yaxınlaşanda müşayiətçilər qımıldanmadığımı görüb "xatası bizdən uzaq" prinsipi ilə, məni uzaqdan-uzağa bir yerli kimi qələmə verdilər... Bəli, mən həmin adamam; bir də qorxan gözə çöp düşər, mənə heç nə olmaz. Siz özünüzü qoruyun ki, gələcəkdə sıralarımız boş qalmasın...

...Otuz yaşlı o müəllim Əbülfəz Qədirqulu oğlu Əliyev idi — 24 ildən sonra müstəqil Azərbaycan Respublikasının Prezidenti olacaq Əbülfəz Elçibəy!..

**Sentyabr 1968 — oktyabr 2012**

# *Ertan Görkmən:* "Türkiyə və Azərbaycan birlikdə problemlərini daha rahat həll edə bilər"

**Bakıda keçirilən İkinci Beynəlxalq Humanitar Forum iştirakçıları arasında Türkiyənin Ankara Universitetinin Dil və tarix-coğrafiya fakültəsinin Koreya dili və ədəbiyyatı bölümünün rəhbəri, dosent Ertan Görkmən də olub. Bizimlə söhbət zamanı E.Görkmən forum barədə fikirlərini paylaşıb.**



— Bu humanitar forum artıq ikinci dəfədir təşkil olunur. Ümid edirəm növbəti illərdə də bu forum davamlı xarakter alacaq. Çünki dünyada artıq bəzi mövzular insanlar deyil, başqa istiqamətlərdən dəyərləndirilməyə başlanıb. Xüsusilə mədəniyyətlərin bir-birilərini kənarlaşdırdığı, rədd etdiyi, daim bir mübarizə meydanı yarandığı, sülhün getdikcə azaldığı bir dünya yaranmağa başlayıb. Bu baxımdan bu humanitar forumun önəmi insanların "biz insanıq" deməyə başladığı bir özəlliyi ilə bağlıdır. Biz Azərbaycanla qardaşıq. Eyni zamanda bir sıra ölkələrlə də humanitar sahədə qardaş ola bilərik. Çünki getdikcə hər kəs fərdi yaşamağa başlayıb, kollektiv yaşayış arxa plana keçir. Fərdi yaşayış tərzi nəinki başqa ölkələri, evimizin yanındakı qonşuları belə tanımayacaq bir vəziyyətə gətirib. Belə olduqda dünya gərgin, sülh şəraitinin azaldığı bir dünya olmağa doğru gedir. Bu baxımdan bu forumun çox önəmli olduğunu düşünürəm. Bu forumun təşkili, hazırlanmasına görə, xüsusilə də fikir sahibinə sonsuz təşəkkür edirəm. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevə öz minnətdarlığımı bildirirəm. Çünki bəzi tarixi hadisələri o tarix içərisində anlamaq çətindir. Ancaq cənab İlham Əliyevin bu cəhdini sonrakı nəsillər, bizim uşaqlarımız, nəvələrimiz tarix kitablarından oxuyaraq ona təşəkkürlərini bildirəcəklər.

***— Forumda çıxışı zamanı ölkə başçısı bir sıra məsələlərə toxundu. Burada vurğulanan fikirlərin gələcək fəaliyyətlər üçün önəmini necə dəyərləndirirsiniz?***

— Prezident İlham Əliyevin çıxışını çox mükəmməl hesab edirəm. Orada çıxışı zamanı multikulturalizmdən bəhs etdi. Bildirdi ki, hamımız multikulturalizm meyillərini gücləndirmək üçün öz səylərimizi qoymağa çalışmalıyıq. Bildirdi ki, forumun məqsədlərindən biri də məhz multikulturalizm meyillərinin gücləndirilməsidir, onun alternativi yoxdur və multikulturalizm gələcək inkişaf üçün ən məqbul variantdır. Çünki multikulturalizmin alternativi özünütəcriddir. Bir ölkədə fərqli mədəniyyətlər ola bilər, fərqli etnik qruplar, seçimlər ola bilər, hamımızın multikulturalizm içərisində dost olaraq yaşamağımız, digər mədəniyyətləri anlayışla qarşılamağımız lazımdır. Prezidentin xüsusi qeyd etdiyi çox önəmli bir mövzu da vardı və təəssüflər olsun dünya bunun üzərində durmur, qəbul etmir ki, bu da Qarabağ problemidir. Burada hamımızın ürəyini qanadan, Azərbaycandakı qardaşlarımızla bərabər gözyaşlarımızı axıtdığımız bir Xocalı qətliamı var ki, dünyaya bunu anlada bilmirik. Təəssüf ki, ermənilərin xüsusilə də Türkiyədə Osmanlı dövründə erməniləri türklərin qətlə yetirməsi ilə bağlı bir iddiaları var. Bunu da dünyada qəbul etdirə bilmirik. Ermənilər bunu tarixi bir problem olaraq qarşımıza qoyur, ancaq görürük ki, bunu tarixçilər deyil, siyasətçilər müzakirə edir. Türkiyə bütün mənbələri açdı və ermənilərə dedi ki, əgər soyqırım varsa, gəlin buna baxın. Biz inanırıq ki, belə bir soyqırım yoxdur. Türkiyənin başında olan erməni problemi hazırda azərbaycanlı qardaşlarımızın da başında var. Hələ Dağlıq Qarabağ problemi həllini tapmayıb, oradan sürgün olan 1 milyon soydaşlarımız öz torpaqlarına dönə bilməyib, Xocalı soyqırımında öldürülənlərin qanı hələ qurumayıb və biz hələ onların acısını yaşayırıq. Prezident İlham Əliyev forumda belə bir reallığı çatdırdığı üçün ona təşəkkürümü bildirirəm. Türkiyə ilə Azərbaycanın bu cür, anlada bilmədiyimiz problemləri var və əl-ələ verərək bunları daha rahat həll edə bilərik. Erməni problemində də ortaq hərəkət etməliyik. Bu gün Azərbaycanın Qarabağ problemi dünyaya aid bir problem olduğu kimi, Türkiyənin başında olan PKK problemi də dünyanı maraqlandıran bir problem oldu.

***— Bu forumda müxtəlif ölkələrdən nümayəndələrin təmsil olunması sizcə, mövcud problemləri daha yaxından izləmək üçün hansı imkanlar verir?***

— Məncə, onlar bu mövzuda bizimlə mənfəətləri ortaq olduqlarını hiss etdikləri zaman istər Qarabağ, istərsə də PKK problemi həll olunacaq. Çünki dünyada Türkiyədə kürd problemi var deyilir, bizim kürd deyil, PKK problemimiz var. Həmçinin dünyada Ermənistanla Azərbaycan arasında problem var deyilir, halbuki Ermənistanın Azərbaycanla problemi var. Coğrafiyaya, xəritəyə baxdıqda əslində Ermənistan türk dövlətlərinin, Orta Asiya dövlətlərinin arasına girmiş qurşaqdır. Əgər bu qurşaq olmasaydı, türk dövləti qədim möhtəşəm günlərinə geri dönəcəkdi. Mən bəzi insanların bunu unutmasının altındakı əsas səbəbin də bu olduğunu düşünürəm. Çünki türklər bütün dünyaya mədəniyyət gətirib. Bütün mədəniyyətlər bu ölkələrdən doğub. İndi baxdıqda 100 illik inkişaf etmiş Qərb mədəniyyətini görürük. Amma biz minlərlə illik bir köklü keçmişə, mədəniyyətə sahibik. Lakin bu mədəniyyətə, keçmişə aid millət ayrı düşdü və biz qardaşlar əl-ələ verərsək, gözəl günlərə asanlıqla qovuşacağıq. Burada başqa ölkələrdən gələn insanlar bunu bilirlər, sadəcə görmək istəmirlər. Mədəniyyətə baxdığımızda səhiyyə, tarix, texnologiya məhz bizim millət tərəfindən yaranıb. Biz bunu kifayət qədər dünyaya çatdıra bilsək, mən müvəffəqiyyət qazanacağımızı düşünürəm. Tarix bir insanın yaşadığı ömürlə sərhədlənmir, biz gələcək nəslə daha yaxşı bir ölkə buraxmaqla məşğuluq. Bu baxımdan buradakı yad qonaqlara onu demək istəyirik ki, bizim nə qədər mədəni, inkişaf etmiş, insani, humanitar bir cəmiyyət olduğumuzu bu gün anlamazsanız, sizə uşaqlarınız anladacaqlar və gün gələcək ki, bu başa düşüləcək. Ancaq bizim bu forumlardan imtina etməməmiz, bir-birimizə dəstək olmağımız lazımdır.

***— Bəs iki ölkə arasında mədəni əlaqələrin inkişafı istiqamətində hansı addımların atılmasını vacib hesab edirsiniz?***

— Bu əlaqələrin daha yaxşı olmasını düşünürəm. Türkiyədə də, Azərbaycanda da məşhur bir söz var ki, "Biz bir millət, iki dövlətik". Biz bir-birimizin dilini başa düşürük, qardaşıq. İstəyirik ki, bu münasibətlər daha yaxşı olsun. İqtisadi əlaqələrimiz getdikcə artır, ancaq daha fərqli sahələrdə də işbirliyi qurmağımız lazımdır. İqtisadi yönümdə qurduğumuz əlaqələrin insani səviyyədə də daha da genişləndirilərək artmasını arzu edirəm. Hər iki ölkədə dövlət səviyyəsində addımlar atılır. Bunlar sevindiricidir, xüsusilə də elm adamlarının bu mövzuda dəstək olmasını vacib sayıram. Mən elmi sahədə iki ölkə arasında çox dəyərli, qiymətli layihələr təşkil olunacağına inanıram. Ümumiyyətlə, belə forumların gələcəkdə davam etməsini istəyirəm. Fərqli sahələrdə insanların bir araya gəlməsinə imkan verir. Mən burada təkcə 10 nəfər Nobel mükafatı olan akademiklə tanış oldum. Mənim üçün bu çox önəmli bir hadisədir. İnşallah, bunlar davam edəcək. Sosial elmdə Nobel mükafatı alan yox idi. Növbəti forumda bu sahədə Nobel mükafatı alanların dəvət edilməsinin Azərbaycan üçün də faydalı olacağını düşünürəm.

**PƏRVANƏ**

# Ağa Laçınlının ailəsi Qərib Məmmədova yenidən müraciət etdi



Mərhum şair Ağa Laçınlının ailəsi zəbt olunmuş torpaq sahəsinə görə Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri Qərib Məmmədova yenidən müraciət edib. Müraciətdə ailənin 11 sentyabr müraciətinə mahiyyəti üzrə cavab verilmədiyi bildirilir. Qeyd olunur ki, həmin cavabda komitə mütəxəssisinin sentyabrın 25-də Badamdarda ailəyə məxsus sahənin peyk koordinatlarını göstərdiyi gizlədilib. Bunun qanunvericiliyə zidd olduğu, ailənin müraciətinin hələ də baxılmamış qaldığı Qərib Məmmədovun diqqətinə çatdırılır və komitə sədrindən müraciətə qanuna müvafiq qaydada cavab verilməsini təmin etmək xahiş olunur.

Səbail rayonunun Badamdar qəsəbəsində yerləşən torpaq sahəsi Səbail Rayon İcra Hakimiyyətinin keçmiş başçısı Rüstəm Məmmədovun icra başçısı işlədiyi zaman anası Biliy Məmmədovanın adına verdiyi 885 saylı sərəncam əsasında zəbt olunub. 2011-ci ildə sabiq icra başçısı və qardaşı Zülfüqar Məmmədov zəbt etdikləri əraziyə daş hasar çəkdiriblər.

2012-ci il sentyabr ayının 11-də Ağa Laçınlının ailə üzvləri Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri Qərib Məmmədova müraciət ediblər. Sentyabrın 25-də həmin müraciətə uyğun olaraq Ağa Laçınlının ailəsinə məxsus torpaq sahəsinin döngə nöqtələrinin koordinatlarını peyk vasitəsilə yerində müəyyən edib dəqiq göstərmək üçün Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin mütəxəssisi Badamdar qəsəbəsinə gəlib. Koordinatların peyk vasitəsilə yerində müəyyən edilməsi prosesində "Azərbaycan", "525-ci qəzet", "Yeni Müsavat", "Bizim yol" qəzetlərinin, eyni zamanda "Modern.az" və "Mediaforum.az" saytlarının əməkdaşları da iştirak ediblər.

Yerində təftiş prosesi zamanı aydınlaşıb ki, sabiq icra başçısı Rüstəm Məmmədovun və onun qardaşı Zülfüqar Məmmədovun çəkdirdiyi daş hasarın 8 metr 50 santimetr hissəsi Ağa Laçınlının ailəsinə məxsus torpaq sahəsinə keçir. Məlum olub ki, 2012-ci ilin sentyabr ayının əvvəllərində, məsələ mediada işıqlandırılandan sonra bu hasarın 2 metrə yaxın hissəsi sökülüb. Hasarın 6 metr yarımdan çox hissəsi isə hələ də Ağa Laçınlının ailəsinə məxsus torpaq sahəsini zəbt etməkdədir. Sentyabrın 25-də jurnalistlərin, hal şahidi Əfqan Həsənovun və Ağa Laçınlının ailəsinin nümayəndəsi Vüqar Tahirzadənin iştirakı ilə yerində akt tərtib olunub. İştirakçılar imzaladıqları aktla mərhum şairin ailəsinə məxsus torpaq sahəsinin zəbtinin davam etdiyini, sabiq icra başçısının çəkdirdiyi daş hasarın hazırda 6,5 metr hissəsinin şairin ailəsinə məxsus torpaq sahəsinə keçdiyini təsdiqləyiblər.

Lakin sonradan Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Dövlət Torpaq Kadastrı və Monitorinqi Elm-İstehsalat Mərkəzinin direktoru Nazim İsmayılov və Bakı Regional Kadastr Mərkəzinin rəhbəri Elçin Məhərrəmli Ağa Laçınlının ailəsinin müraciətinə mahiyyəti üzrə cavab verməyiblər. Nazim İsmayılov və Elçin Məhərrəmli sentyabrın 25-də şairin ailəsinə məxsus torpaq sahəsinin döngə nöqtələrinin koordinatlarının yerində göstərilməsi və aşkar olunmuş qanunsuz zəbt faktını gizlədiblər. Mərhum şairin ailəsinin dövlət komitəsinin sədri Qərib Məmmədova təkrar müraciəti də bununla bağlıdır.

# *Aqil Abbas:* "Mənim tövsiyəmdən sonra Həsənqulunun adı dəyişdi"



Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Terminologiya Komissiyası Azərbaycanda istifadəsi məqbul hesab edilməyən adların yeni siyahısını açıqladı. Bununla əlaqədar bir sıra yeni adların siyahısı müəyyənləşdirilib. Komissiya tərəfindən "Traktor", "Limonad", "Sovet", "Ansambl" kimi bir sıra adlar, o cümlədən "Həsənqulu", "Ağayi Hacı Zeynəb" tipli çoxmərtəbəli adların qoyulması məqbul hesab olunmur.

Komissiyanın qərarı ilə bağlı Azərbaycan Respublikası Milli Məclisinin deputatı Aqil Abbasın münasibətini öyrəndik. 525.az-a açıqlamasında millət vəkili hələ bu siyahıyla tanış olmadığını bildirib: "Qeyd edə bilərəm ki, Sovet dövründə də ad qoymaqda çətinlik çəkən valideynlər üçün xüsusi bir kitab olub. Lakin bu da məcburi xarakter daşımayıb, kitabda qeyd olunmayan adların qoyulması da məqbul hesab olunub. Azərbaycanda ad problemi həmişə yaşanıb. Xoşagəlməz, keçmişdən qalan adlar var ki, artıq bunlardan uzaqlaşmağın vaxtı çatıb".

Dini adların qoyulmasına münasibətini bildirən Aqil Abbas bu tip adların tərəfdarı olmadığını söylədi: "Mənim atamın adı Məhəmməddir. Dini şəxslərin adının qoyulmasını düzgün hesab etmirəm. Həmin adı daşıyan şəxs bu ismi doğrultmayaraq dini şəxslərin adına ləkə sala bilər. Üzeyir Hacıbəyovun qardaşı nəvəsi Ceyhun Hacıbəyli ilə görüşərkən nədən Üzeyir bəyin qardaşı nəvələrinin bu adı daşımamalarının səbəbini soruşdum. Ceyhun bəy babalarının onlara bu adı qoymasını qadağan etdiyini söylədi. Üzeyir bəyin adını daşıyan şəxs sabah bu ada ləkə də sala bilər".

Aqil Abbasın çoxmərtəbəli adlara münasibətini də öyrəndik: "Mən də "Həsənqulu", "Əliqulu" kimi bir çox adların qoyulmasını istəməzdim. Lakin kiməsə bu adı qoymamağa məcbur etmək olmaz. Sovet dövründə "Şura", "Kolxoz" tipli adlar vardı. İndi bu adlara müraciət edilmir. Mənim "Həsənqulu" imzası ilə yazdığım bir sıra yazılarım var. "Həsənqulu" mənim yaratmış olduğum bir obrazdır. O, Qarabağ hadisələri ilə əlaqədar qaçqın düşən vətəndaşlarımızdandır. Onun adı ilə ironik məsələlərə, ATƏT-in fəaliyyətinə və sairə belə önəmli məqamlara münasibətimi bildirmişəm. Bu adın siyahıda olmaması məni narahat etmir. Bu adın qoyulmasının tərəfdarı deyiləm. Çox yaxın dostumun oğlunun adı Həsənqulu olub. Mənim tövsiyəmdən sonra o övladının adını dəyişdi".

Aqil Abbas nənə və babanın öz adlarını nəvələrinə verməsinə də münasibətini bildirərək bu cür addımları yaxşı qarşılamadığını və ad seçimi edərkən türk adlarına üstünlük vermələrini tövsiyə edib: "Mən türk adlarının tərəfdarıyam. Gülməli, çeynənmiş adlardan imtina etmək lazımdır".

**Nigar MƏHƏRRƏM**

## *Abel Məhərrəmov:* "Gülər Əhmədova cinayət məsuliyyətinə cəlb olunsa..."

Sabiq deputat Gülər Əhmədova cinayət məsuliyyətinə cəlb olunarsa, onun Bakı Dövlət Universitetindən çıxarılması məsələsi müzakirə ediləcək. Bunu "Trend"ə BDU-nun rektoru, deputat Abel Məhərrəmov deyib.

"Təbii ki, Gülər Əhmədova cinayət məsuliyyətinə cəlb olunmasa, qalıb işləyəcək. Cinayət məsuliyyətinə cəlb olunsa, bu məsələ universitetdə müzakirə olunacaq", — deyə A.Məhərrəmov bildirib.

Rektorun sözlərinə görə, Gülər Əhmədova BDU-da bir neçə ildir müəllim vəzifəsində yarımştat çalışır: "O, bu ilin sentyabr ayında bir neçə dərsdə olub. Mənə verilən məlumata görə, sentyabrın 20-dən sonra dərslərdə iştirak etməyib. Gündəmdə olan məsələdir, müzakirəyə ehtiyacı var. Əgər o, hüquq-mühafizə orqanları tərəfindən cinayət məsuliyyətinə cəlb olunarsa, təbii ki, onda universitet öz qərarını verəcək. İşlədiyi dövrdə onun müəllimlik fəaliyyəti ilə bağlı narazılıqla qarşılaşmamışam".

## İslam Kərimov Azərbaycana rəsmi səfərə gəlir

Oktyabrın 11-12-də Özbəkistan prezidenti İslam Kərimov Azərbaycanda rəsmi səfərdə olacaq.

APA-nın Özbəkistan prezidentinin mətbuat xidmətinə istinadən verdiyi məlumata görə, səfər Azərbaycan prezidentinin dəvəti əsasında gerçəkləşəcək.

Dövlət başçıları ikitərəfli münasibətlərin inkişaf perspektivlərini müzakirə edəcək, aktual regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparacaqlar. Səfərin yekunları əsasında birgə Bəyannamənin, eləcə də müxtəlif sahələrə aid sənədlərin imzalanması planlaşdırılır.

# *Əli Əhmədov:* "Bu, Gülər Əhmədovanın mənəviyyatının, əxlaqının göstəricisidir"

"Mən istənilən məsələnin şəxsi deyişmə, məişət səviyyəsinə enməsinin tərəfdarı deyiləm.

Bu, mənim xarakterimə uyğun deyil. Düşünürəm ki, biz siyasətlə məşğul oluruqsa, gərək daha ciddi məsələlər ətrafında, daha ciddi səviyyədə söhbətlər aparaq. Məsələnin digər tərəfi var ki, əgər insanın sözü qurtarırsa və o, təhqirlərə keçirsə, bu onun mənəviyyatının göstəricisinə çevrilmiş olur. Mən heç zaman istəməmişəm ki, kimdəsə mənim mənəviyyatımla bağlı hansısa şübhə yaransın. Mən çox ciddi mənəvi-əxlaqi dəyərlərə söykənən bir adamam. Bu, məişətdə də, həyatda da, insanlara, öz işimə, eləcə də digər məsələlərə münasibətimdə də belədir".

Bunu APA-ya eksklüziv müsahibəsində hakim Yeni Azərbaycan Partiyasının (YAP) sədr müavini-icra katibi Əli Əhmədov keçmiş deputat Gülər Əhmədovanın onun barəsində sosial şəbəkələrdə yazdığı fikirlərə münasibət bildirərkən deyib.

Ə. Əhmədov G. Əhmədovanın onun barəsində nələrsə yazdığını eşidəndə ilk reaksiyasının necə olmasından da danışıb: "Belə bir şey eşidəndə, sözün düzü heç onunla maraqlanmadım da. Bilmədim ki, heç nə yazıb. Bir gün keçəndən sonra bildim ki, belə şeylər yazılıb. Səhəri günü axşamüstü oğlumdan eşitdim. O, gülə-gülə dedi ki, belə deyiblər. Güldük, qurtardı-getdi. Deyib-deyib də... Təbii ki, bu onun mənəviyyatının, əxlaqının göstəricisidir. Vurğulamalıyam ki, mən ona verilən cavablardan da xəbərsiz olmuşam. O cavablar mətbuatda çıxandan sonra bildim ki, mənim dostlarım, partiyanın təəssübünü ürəkdən çəkən insanlar ona cavablar veriblər. Bəlkə də heç o cavablara ehtiyac yox idi. Bir insan olaraq deyirəm ki, buna ehtiyac yox idi. Hər kəslə ağız-ağıza verib, deyişməyin tərəfdarı deyiləm. Deyib, deyib də. Ataların bununla bağlı gözəl sözü var... İndi mən həmin misalı təkrar etmək istəmirəm... Yəqin müşahidə etmisiniz, mən haqqımda deyilən şeylərə heç vaxt münasibət bildirməmişəm. Hətta bəzən təhqir də ediblər. Bu, artıq həmin təhqiri edənin insani keyfiyyətləri, şəxsi göstəriciləridir. Ona görə də mən həmin məsələyə münasibət bildirmədim, bundan sonra da münasibət bildirməyəcəyəm".

# İctimai Palatada növbəti fikir ayrılığı

Demokratik Qüvvələrin Məşvərət Məclisi (DQMM) İctimai Palataya (İP) əməkdaşlıq haqqında məktub ünvanlayıb. Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) sədri Yusif Bağırzadə APA-ya açıqlamasında bildirib ki, məktub Məclisə daxil olan 14 partiya adından ünvanlanıb. Y.Bağırzadənin sözlərinə görə, rəsmi müraciət ünvanlanmasına baxmayaraq, hələ də qarşı tərəfdən cavab gəlməyib: " İctimai Palata ilə əməkdaşlığı əks etdirən məktubda ölkədəki ictimai-siyasi vəziyyətlə bağlı əməkdaşlıq, Seçki Məcəlləsinə əlavə dəyişikliklərin edilməsi, seçki mühitinin demokratikləşməsi məsələləri öz əksini tapıb".

İP-in Koordinasiya Şurasının (KŞ) üzvü Pənah Hüseyn həmin məktubun mətni ilə tanış olduğunu bildirib. Onun sözlərinə görə, müraciətdə konkret təklif irəli sürülməyib: "Müraciətdə demokratikləşmə istiqamətində əməkdaşlıq təklif olunur. Biz Koordinasiya Şurasının üzvləri ilə müzakirələr apardıq və müraciətin qəbul edilməsi ilə bağlı qərar verdik. Bir daha qeyd edirəm ki, orada konkret bir hərəkət, təklif, detal olmayıb".

İP KŞ-ın digər üzvü Vidadi Mirkamal isə APA-ya açıqlamasında həmin müraciətdəki təkliflərlə razılaşmadığını deyib: "Məşvərət Məclisinin təklifində bildirilirdi ki, müxalifətin birləşməsi üçün ümumi Koordinasiya Şurası yaradılmalı və onun tərkibinə 2 nəfər Məşvərət Məclisindən, 2 nəfər İctimai Palatadan, 2 nəfər isə ictimaiyyət nümayəndəsi daxil olmalıdır. Düşünürəm ki, bu, mümkün olmayan bir şeydir. Çünki İctimai Palata özü ciddi və kifayət qədər uğur qazanmış bir qurumdur. Ona görə də quruluşu və gələcəyi bilinməyən Məşvərət Məclisinin təkliflərini qəbul edə bilmərik".

# Ombudsman Aparatı ömürlük məhbusların müraciətini parlamentə göndərib

"Ömürlük məhbusların müraciətini Milli Məclisə göndərmişik. İndi qanunverici orqandan cavab gözləyirik. Cavab alan kimi ictimaiyyətə məlumat veriləcək". Ombudsman Aparatının şöbə müdiri Vüqar Məhərrəmov "Media forum" saytına belə deyib. Şöbə müdiri ombudsman Elmira Süleymanovanın 2005-ci ildə Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etdiyini xatırladıb: "Konstitusiya Məhkəməsi sorğuya baxdı və 1998-ci ilədək ölüm cəzasına məhkum olunmuş ömürlük məhbuslar məhkəmələrə müraciət etmək imkanı qazandılar. Düzdür, məhkəmələr onlara çıxarılmış hökmləri dəyişmədi, ömürlük həbs cəzaları qüvvədə qaldı, ancaq biz bu kateqoriyadan olan məhbusların işini daim diqqətdə saxlayırıq".

Vüqar Məhərrəmov Ombudsman Aparatı əməkdaşlarının yaxın günlərdə Qobustan həbsxanasına baş çəkəcəyini və Elmira Süleymanovaya müraciət etmiş məhbuslarla görüşəcəyini əlavə edib.

Bir qrup ömürlük məhbus ötən ay ombudsman Elmira Süleymanovaya müraciət edib. Məhbuslar 1998-ci il fevralın 10-da Milli Məclisin qəbul etdiyi qanunla ölüm hökmünün ləğv olunduğunu xatırladaraq bildiriblər ki, sənəd vaxtilə ölümə məhkum edilmiş şəxslərin cəzasının ömürlük həbslə əvəzlənməsini də nəzərdə tutub: "Milli Məclisin öz səlahiyyətlərini aşaraq, məhkəmə hakimiyyətinin səlahiyyətlərini mənimsəyərək bizə təyin etdiyi ömürlük həbs cəzası Azərbaycan qanunvericiliyinə, beynəlxalq hüquq normalarına ziddir. Cinayət qanununun zamana görə qüvvəsi hüquqi prinsipi və 2000-ci il sentyabrın 1-nə qədər qüvvədə olmuş Cinayət Məcəlləsinin tələblərinə əsasən, bizim hər birimizin işinə məhkəmədə fərdi qaydada baxılmalı, 15 il azadlıqdan məhrumetmə cəzası kəsilməli və yaxud prezidentin əfv sərəncamı qaydasında uzağı 20 il azadlıqdan məhrumetmə cəzası verilməli idi".

Müraciət müəllifləri Avropa Şurası Parlament Assambleyasının 2007-ci il aprelin 16-da qəbul etdiyi qətnamədə Azərbaycan hökumətinə ölüm cəzasının ləğvindən sonra ömürlük məhbusa çevrilmiş şəxslərin cəzalarının yumşaldılmasını tövsiyə etdiyini xatırladıblar: "Qətnamənin 8.9-cu bəndində qeyd olunur ki, ölüm cəzasının ləğvi ilə əlaqədar yaranmış problemlərin həlli üçün hər bir məhkumun işinə yenidən baxılmalı və qanunun geriyə qüvvəsi prinsipinin ən əlverişli müddəalarına müvafiq cəza təyin edilməlidir.

Hörmətli Elmira xanım! Pozulmuş hüquqlarımızın bərpası üçün çoxsaylı aclıq aksiyaları keçirmişik. Dəfələrlə prezidentə, insan hüquqlarını qoruyan yerli və beynəlxalq təşkilatlara, həmçinin sizə müraciətlər etməyimizə baxmayaraq heç bir ölçü götürülməyib. Son dəfə 2011-ci il sentyabrın 28-də Milli Məclisin komitə sədrləri Əli Hüseynli, Rəbiyyət Aslanova, Səməd Seyidovun adına yazdığımız müraciətləri həbsxana rəhbərliyi rəsmi şəkildə Milli Məclisə göndərib, amma heç bir cavab ala bilməmişik. Sizdən xahiş edirik ki, parlamentin 1998-ci il fevralın 10-da yol verdiyi kobud qanun pozuntusuna dair müraciətlərimizə cavab verilməməsi və Avropa Şurası Parlament Assambleyasının 2007-ci il aprelin 16-da qəbul etdiyi qətnamənin 8.9-cu bəndinin indiyədək yerinə yetirilməməsi səbəblərini öyrənmək üçün Milli Məclisə sorğu ilə müraciət edəsiniz".

**“Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə**

# Açıq cəmiyyət və mətbuat



*Tofiq YUSİFOV*

Azad mətbuatın inkişafına əngəl yaradan süni məhdudiyyətlərin, o cümlədən, senzuranın aradan qaldırılması, qanunvericiliyin təkmilləşdirilməsi və müasir dünya standartlarına uyğunlaşdırılması, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, onlar üçün çoxsaylı güzəştlərin müəyyənləşdirilməsi, bu istiqamətdə verilmiş bir sıra fərman və sərəncamlar, mətbuat işçiləri ilə mütəmadi görüşlər ənənəsinin yaradılması, KİV-lə bağlı problemlərə operativ müdaxilə — bütün bunlar H.Əliyevin azad sözə və onun daşıyıcılarına münasibətini səciyyələndirən faktlardır. Heydər Əliyev dəfələrlə qeyd edirdi ki, mətbuata düzgün münasibət, onun problemləri ilə daim məşğul olmaq dövlət quruculuğunun mühüm bir sahəsidir. O, mətbuatda sərt, ziddiyyətli meylləri duyan kimi dərhal buna reaksiya verir, KİV nümayəndələri ilə görüşür, onlarla canlı dialoq qururdu.

Bu ənənələr ümummilli liderin varisi, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. O, xarici ölkələrdə fəaliyyət göstərən dip-lomatlar qarşısındakı çıxışında, əslində, mətbuatın böyük təbliğatçılıq funksiyasını çox düzgün müəyyənləşdirmişdi: “Azərbaycan haqqında reallıqlar, həqiqətlər dünya ictimaiyyətinə çatdırılmalıdır. Ümumiyyətlə, mən xarici mətbuatı mütəmadi olaraq izləyirəm. Görürəm ki, Azərbaycan haqqında məlumatlar çox birtərəflidir. Azərbaycan yalnız neft ölkəsi kimi təqdim edilir, yaxud da ölkəmiz haqqında Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar məlumat verilir. Amma Azərbaycanın qədim tarixi var, Azərbaycanın çox zəngin mədəniyyəti, mədəni irsi var. Bu haqda dünyada mövcud olan məlumatlar, informasiyalar çox azdır, çox aşağı səviyyədədir. Bu sahədə böyük işlər görmək lazımdır ...Siz bilirsiniz ki, bu gün mətbuat dünyada çox böyük rol oynayır. Ümumiyyətlə, siz çalışdığınız ölkələrdə mətbuatla işlər çox güclü qurulmalıdır.

Azərbaycan çox sürətlə inkişaf edən ölkədir. Azərbaycan beynəlxalq aləmdə çox güclü mövqelərə malik olan ölkədir. Azərbaycanda böyük, dünya əhəmiyyətli layihələr həyata keçirilir. Əlbəttə, yaxşı olardı ki, bütün bu reallıqlar haqqında xarici mətbuata daha böyük həcmli məlumatlar çatdırılsın”.

Heydər Əliyevin mətbuata münasibəti daim demokratik inkişafın zəruri tələblərinə söykənirdi. Təsadüfi deyildir ki, 1998-ci il avqustun 6-da Azərbaycan Respublikasının Prezidenti H.Əliyev “Ölkədə söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında” fərman imzalamışdır. Bu fərmanın bir bəndinə əsasən Mətbuatda Dövlət Sirlərini Mühafizə edən Baş İdarə ləğv olundu. Bu, senzuranın ləğvi demək idi. Həmin vaxtdan etibarən Azərbaycan mətbuatında yeni bir mərhələ başlandı. Eyni zamanda H.Əliyevin hakimiyyətinin ilk illərində məmur-jurnalist münasibətləri mövcud reallıqlara əsaslanmırdı. Bu problem də sonralar ustalıqla həll edildi. H. Əliyev mətbuatla mütəmadi olaraq ünsiyyət qurdu, media ilə işləmək vərdişləri aşıladı və məmur-jurnalist münsibətlərinə yeni dinamika və əlaqələr gətirdi. O, öz ətrafına, dövlət nümayəndələrinə medianın yazdıqlarına dözümlülüklə yanaşmağı təlqin edir, bu yeni yanaşma metodunu səbr və qətiyyətlə bütün cəmiyyətə aşılayırdı.

H.Əliyev mətbuatın gücünə münasibətini, onun cəmiyyətin həyatındakı roluna verdiyi önəmi bəhs etdiyimiz fərmandan bir ay sonra 1998-ci il sent-yabrın 15-də “Azərbaycan” qəzetinin kollektivinə ünvanladığı təbrik məktubunda çox dəqiq şəkildə vurğulamışdı: “...Ölkəmizin mütərəqqi mətbuat ən-ənələrini ləyaqətlə davam etdirən “Azərbaycan” qəzeti bu gün demokratiyanın, siyasi plüralizmin, aşkarlığın təmin edilməsində müstəsna rol oynayır. Onun səhifələrində Azərbaycan həqiqətləri, ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması, iqtisadi islahatların həyata keçirilməsi, sağlam mənəvi-psixoloji mühitin, vətəndaş həmrəyliyi və milli birliyin yaradılması sahəsində aparılan məqsədyönlü işlər və ictimai- siyasi proseslər qərəzsiz işıqlandırılır”.

Sözügedən və ondan sonrakı dövrdə uzun müddət insanlar millətin yeni şəraitdə maariflənməsi, bəşəri dəyərlər, Avropa reallıqları və demokratiya haqqında zəruri bilgiləri məhz ölkə mətbuatından alırdılar. Milli mətbuatımız isə bu dövrün prioritet istiqamətlərini müəyyənləşdirməklə yanaşı, qarşıya çıxan neqativ halları cəsarətlə tənqid etməkdən belə çəkinmirdi. İ.Rəhimovun “Konstitusiya haqqında” , H.Hacızadənin “Liberalizmin beşiyi-İngiltərə”, “Mən azadlıq və özünüidarə üçün nə etmişəm”, K. V. Nərimanoğlunun “Milli ideologiya konsepsiyası”, M. Bağırovun “KİV haqqında” qanun qeyri-demokratikdir”, V.İsmayılovanın “Avropa Şurasındakı bir illik fəaliyyət Azərbaycana nə verdi?”, İ. Bayandurlunun “İctimai tele-radio verilişləri haqqında” qanun Konstitusiyaya ziddir”, R. Mehdiyevin “XXI əsrdə milli dövlətçilik: demokratik inkişaf və müxalifət”, R.Məcidin “Biz hamıya nümunə olmalıyıq”, N.Yaqublunun “İlk mətbuat qanunumuz” başlıqlı yazıları və digər publisistik materiallar ölkə oxucusu üçün çox önəmli, orijinal və maraqlı idi.

Lakin bir problemi də nəzərdən qaçırmamaq lazım idi: Azərbaycan totalitar rejimdən, yenidənqurma dövründən birbaşa, dərhal demokratik ölkəyə çevrilə bilməzdi. Bunun üçün hər şeydən əvvəl uzun və əzablı keçid dövrü, bir də müstəqil, azad, fədakar və demokratik mətbuat lazım idi. Bu işdə medianın üzərinə daha böyük məsuliyyət düşürdü.

İnsanlar mətbuatın köməyi ilə daha əyani şəkildə traybolistik cəmiyyətin- qapalı cəmiyyətin totalitar mahiyyətini, mütləq, dəyişməz prinsipləri və qadağaları fonunda açıq cəmiyyətin fərdin hərtərəfli inkişafı üçün çox geniş üfüqlər açan imkanlarını daha dərindən dərk edir,qavrayırdılar. “Açıq cəmiyyət və jurnalistika bir-birini tamamlayan iki fakt kimi qiymətlidir” reallığı belə taleyüklü tarixi şəraitdə mətbuatın sabahı üçün hava və su kimi vacib məsələ — yeni kadr hazırlığı, açıq cəmiyyətin carçıları və ideya yaradıcıları olan jurnalistlər yetişdirilməsi prosesi xüsusilə daha böyük aktuallıq kəsb edirdi.

“Heç bir məmur səriştəsiz müxbirə informasiya verməz” tipli həqiqətləri ümumi şəkildə qəbul edən bir sıra mətbuat nəzəriyyəçilərinin, media nümayəndələrinin fikrincə, səriştəli kadrlar yetişdirmək üçün yeni yaranmış şəraitdə jurnalist peşəkarlığına münasibət də kökündən dəyişməli idi. Məsələn, publisist Aydın Sadiq “525-ci qəzet”də dərc olunmuş “Jurnalist sənətkarlığı” başlıqlı məqaləsində bu prosesdə peşəkarlığın bilik, bacarıq, cəsarət və mənəviyyat kimi əlamətlərinin hökmən nəzərə alınmasını təklif edirdi.

Şair-publisist Famil Mehdinin qənaətinə görə isə, jurnalist kadrların hazırlanması üçün təxirəsalınmadan yeni Yaradıcılıq Mərkəzi yaradılmalı, ali məktəblərə qəbul zamanı test üsulu ləğv edilməli və beynəlxalq təşkilatlarla əlaqələr hər vasitə ilə, durmadan genişlənməli idi.

Ümumi psixologiyanın dəyişməsi də çox mühüm əhəmiyyət daşıyırdı, çünki insanların şüurunda tərəqqiyə nail olmadan hər hansı açıq cəmiyyətdən söhbət belə gedə bilməzdi.

Burada məsələyə iki aspektdən yanaşılmalı idi: keçid dövrü üçün zəruri olan addımlar və tamam stabil dövlətə xas ictimai münasibətləri tənzimləyən addımlar. Stabil dövlətlərdə bir sıra problemləri, o cümlədən demokratiya, mətbuat və azadlıqlarla bağlı problemləri məhkəmə yolu ilə həll etmək olar. Amma keçid dövründə insanlar sui-istifadə hallarına daha çox meyl edirsə, problemləri məhkəməsiz də həll etmək olar. Qlobal baxımdan bu, qüsurlu görünür. Amma yaddan çıxarmaq lazım deyil ki, ölkə Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmışdı. Bu baxımdan Azərbaycan özünü güclü bir dövlət kimi qurmaq üçün ciddi addımlar atmalı idi. Məhz bu reallıqlardan çıxış etsək, onda ölkəmizin bəzi addımları, ola bilsin ki, konservativ Avropa kriteriyaları ilə müqayisədə qeyri-standart görünə bilərdi.

Həmin illərdən başlayaraq Azərbaycan mətbuatı qarşısında dinamik inkişafa nail olmaq kimi çətin və strateji bir vəzifə dururdu. İlk növbədə, uzun illərdir ki, bir sıra yabançı ideyaların əhatəsində olan Azərbaycan vətəndaşlarının ictimai şüurunda dəyişikliyə nail olmaq, yeni cəmiyyət yaratmaq, yeni ideyalar və sosial baxımdan firavan həyat uğrunda mübarizə dururdu. Onu da xüsusi olaraq vurğulamaq lazımdır ki, o illərdən başlayaraq indiyə kimi ictimai şüurun yenidən formalaşdırılması təkcə milli medianı və milli ideoloqları deyil, bütövlükdə dünyada “yeni dünya qaydası” yaratmaq istəyənləri çox ciddi şəkildə düşündürürdü.

Azərbaycan üçün mətbuat azadlığı, mətbuatın ümumi təməl prinsipləri, sivil fəaliyyət istiqamətlərinin müəyyənləşməsi sahəsində mübarizə səyləri yeni məsələ deyildi . 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-nə qədər fəaliyyət göstərmiş, Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Demokratik Respublikasının parlamenti “Mətbuat haqqında” çox maraqlı bir qanun qəbul etmişdi və qanunun əsas prinsipləri indi də öz aktuallığı və həyatiliyi ilə hamını heyrətləndirməkdədir. 1919 — cu il oktyabrın 30-da qəbul olunmuş və “Mətbuat Nizamnaməsi” adlanan bu qanun Azərbaycan tarixində mətbuat üzrə ilk qanunvericilik aktı idi.

Əgər köhnə cəmiyyətdə şəxsiyyətin aparıcı rolu həmişə danılır, sinfin aparıcı rolu ön plana çəkilirdisə, yeni cəmiyyətdə şəxsiyyət, insan ön plandadır. Yeni dövr tələb edir ki, kütlədən, toplumdan çox istedada, qabiliyyətə qiymət verilsin. Azərbaycan mətbuatı digər aktual və labüd təsisatlarla birlikdə sivil cəmiyyətə doğru yolu uzun müddətə də keçə bilər. Əsas odur ki, istiqamət düzgün olsun, islahatlar, dəyişikliklər sabitliyə xələl gətirməmək şərti ilə addım-addım atılsın. Bu proseslə bağlı professor Şahlar Əsgərov “Azərbaycan” qəzetinə verdiyi müsahibəsində maraqlı müddəalar irəli sürür: “KİV keçid dövründə çox ehtiyatlı olmalıdır. Biz daim Amerikaya, Avropanın inkişaf etmiş ölkələrinə istinad etməliyik. Həmin ölkələr indiki mərhələyə çatmaq üçün uzun, mürəkkəb proseslərdən keçiblər, amma öz milli dəyərlərini, dövlətin mənafeyinə xələl gətirməyən amilləri saxlayıblar. Nə üçün Fransada xarici dildə nəşrlər qadağandır? Niyə Almaniyaya xarici nəşrlər aparmaq mümkün deyil? Amma Fransanı, Almaniyanı heç kim avtoritar respublika saymır. Ona görə də keçid dövründə administrativ müddəaların olmasından qorxmaq lazım deyil”.

Bu iqtibasda fikirlərin bəziləri ilə razılaşmaq olsa da, mübahisəli məqamlarla da rastlaşırıq. Hesab etmirik ki, bəzi qeyd-şərtlərlə hər hansı bir ölkədə xarici




dillərdə nəşrlər buraxmağa qadağa qoymaq müsbət təcrübə kimi qiymətləndirilə bilər. Digər tərəfdən, Fransa ilə bağlı sözügedən faktı professorun haradan götürdüyünü deyə bilmərik, amma dəqiq şəkildə məlumdur ki, Fransada xarici dildə qəzet və jurnal nəşrinə heç bir qadağa qoyulmayıb, əksinə, burada ərəb, rus, ingilis, alman, erməni dillərində nəşrlər mövcuddur. Məsələn, ərəb dilində çap olunan “Əl-Vətən əl-Ərəbi”, “Əl-Müstəqbal”, “Əl-Taliya” qəzetləri Fransada etnik ərəblər arasında böyük nüfuza malikdir.

O ki qaldı administrativ müddəaların olmasına, fikrimizcə, burada keçid dövründə administrativ müddəaların ümumi inkişafa və cəmiyyətin tərəqqisinə verəcəyi töhfə kontekstindən qiymətləndirilməsi daha məqsədəuyğun olardı.

Faktlar göstərir ki, məhz keçid dövründə istənilən ölkədə bir sıra həyəcan doğuran qarışıqlıq və xaos müşahidə olunur ki, bu səbəbin də arxasında qəribədir ki, bir çox hallarda məhz... mətbuat dayanır. Ölkə mətbuatının yazdığına görə, Azərbaycanda “...1990-cı ildə 14, 1991-ci ildə 28, 1992-ci ildə isə 46 ciddi nəticələr verə biləcək ekstremal şərait baş verib. Bunun (əsasən 1992-ci ildə) 32- si müxbirin və yaxud strateji araşdırma mərkəzinin yalan və saxta məlumatları əsasında olub” .

(Əvvəli ötən sayımızda)

(Ardı var)

**Səhifədəki material Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub**

# Kürsü bülbülü

**(hekayə)**

*Qərib MEHDİ*

Şəhərə təzə başçı təyin edilmişdi. Yatanlar oyanmış, oyaqlar isə çalxantılı bir intizar içində fürsət gözləyirdilər. Fitrətən qaz ayıqlığına malik olan Şərbətalı bəy gözləyənlər arasında üstün cəhətləri sayəsində həmkarlarından seçilirdi. Maraqlılar təzə başçının tərcümeyi-halının görünən və görünməyən tərəflərini, nəyə meyilliliyini, yuxarılarda kimlə bağlılığını, yerliçilik şakərinin dərəcəsini, iş üslubunu, kadrlara hansı bucaqdan baxışını, başlıcası, tərifə, alqışa yatımlılığını araşdırmaqla məşğuluydular. Maraqlılar dalğalı dənizdə vurnuxan kiçik və orta həcmli qayıqlara, gəmilərə oxşayırdılar. Onlar “Şəhərbaşı” adlı limana yan almaq üçün münasib şərait, uğurlu fürsət axtarırdılar. Şəhərbaşını ələ almaq üçün hərə öz silahı ilə — kimi xahişi, kimi pulu, kimi gülü, kimi də dili ilə hazır dayanmışdı. Şərbətalı bəyin silahı yasalamaqda Fransa yağını, şirinlikdə Hindistan şəkərini geridə qoyan diliydi. Allah bu dili ona çörək ağacı kimi bəxş etmişdi. Bu dilin cazibəsinə, ovsununa düşməyən şəhər rəhbəri yoxuydu. İstək, arzu qarşılıqlıydı. İxtiyar sahibləri də belə bir dilsiz keçinə bilmirdilər. Axı necə keçinə bilərdilər?! Bu dil özünün möcüzə qabiliyyətilə “Fış!..” eləyib, “Fiş!..” eləyib zibillərini “kişmiş” eləyib tökürdü camaatın cibinə.

Şəhərə təzə başçı təyin edilmişdi. Maraqlılar amadə dayanmışdılar. Hamı bir-birinə amansız rəqib kimi baxırdı. Qısqanclıq alovunun şiddəti bir-birini qarsıyırdı. İlk təmas addımını atmaq kimə nəsib olacaqdı? Əlbəttə, bu qapı qarşı tərəfdən, səlahiyyət sahibi tərəfindən açılmalıydı. Rəhbər ilk dəfə kimə iltifat göstərib əl uzadacaqdısa, birincilik də ona nəsib olacaqdı.

Rəhbərlər çörəksiz, susuz yola gedə bilərlər, tərifsiz yox. İllah da ki, bu tərif tribunadan — xitabət kürsüsündən deyilə! Usta natiq tərəfindən söz kürsüsündən yağdırılan tərifin qiymətini müəyyənləşdirmək çox çətindir. Bir şey ki, xəstə rəhbərə oksigen balıncı kimi vaxtında çatdırıla, doğrudan da, onun dəyəri əvəzsizdir. Xalq onun ən mahir ifaçılarına “kürsü bülbülləri” deyir. Şərbətalı bəyin rəqibləri çox olsa da, o, özünü bir nömrəli kürsü bülbülü hesab edirdi.

Kürsü düşkünlüyü də qarşılıqlı idi. Bu mərəz həm eşidəni, həm də deyəni öz ağuşuna almışdı. Yoluxandan sonra kürsü düşkünü xəstəliyindən qurtulmaq müşkül məsələdi. Kürsü bülbülləri həftədə bir-iki dəfə ötməsəydilər, özlərini halsız hesab edərdilər. Elə rəhbərlər də. Tərif səlahiyyətlilər üçün can-əzələ masajından az əhəmiyyətli olmayan söz masajı, söz sığalıdır. Birini soyunanda, o birini geyinəndə icra edirlər.

Modernləşmə həyatın bütün sahələrində aparılır. O cümlədən, söz kürsüləri də bu inkişafdan yan durmayıb. Vaxtilə zəhmli hündürlüyünə, təhdidedici mikrafonlarına xof içində baxdığımız söz kürsülərinin indi enindən, uzunundan, hündürlüyündən çox alıblar. Adamdan yekə olanlar indi adamdan balaca görünür. Bu modernləşməni başqa yerlərdə başqa cür aparmışdılar. Şərbətalı bəyin yaşadığı şəhərdə isə bu modernləşmə tamam fərqli mətləblərdən xəbər verirdi.

Şərbətalı bəy elə bir can-cüssə sahibi deyildi. Vaxt var idi, bu balaca kişi iri tanka oxşayan kürsünün içində itib-batırdı. Onun nəriltili, gurultulu çıxışı “tank”ın içindən iclas salonuna yayılırdı. Yığıncaq iştirakçıları təkcə onun havada oynayan, sözünün kəsərini artıran, emosiyasını yüksəldən əllərini görərdilər. Əlbəttə, boyu udulmasaydı, onun od saçan ağzını, qızmış gözləri üstündə rəqs edən qaşlarını, hərəkətlərində aktyorluq texnikasını, tələbata uyğun səsinin enişini, qalxışını daha əyani müşahidə edərdilər. Və ona heyranlıqla qulaq asan, məmnuniyyətlə başını yırğalaya-yırğalaya dediklərini təsdiq edən rəhbərin necə xoşallandığının şahidi olardılar.

İtkiyə dözmək olmazdı. Şərbətalı bəy Allahın kürsü deyilən quru taxtasına təpinə-təpinə, barmaqlarını silkələyə-silkələyə onu əridib kiçiltdi. Və axır ki, özü göründü. Şərbətalı bəyin özünəməxsus kürsü islahatı belə başa çatdı.

Hərdən Şərbətalı bəyə peşəsilə bağlı da müraciət edirlər: “Kürsü bülbülü”. Bu, onun kimliyini təyin edən, lakin kimliyinə yazılmayan ikinci adıdır. O, bu addan incimək nədir, hətta onunla qürur hissi duyur: “Bülbül ötməsə, bahar gəlməz. Bülbül ötməsə, gül-çiçək açmaz. Bülbül ötməsə, sevgililər sevdaya düşməz. Bülbül ötməsə, rəhbərləri yuxuya vermək olmaz. Yuxu rəhbərin dərmanı, Şərbətalı bəyin dəyirmanıdır. Biri bişirməsə, o biri düşürməz. Tərif masajına alışanlar bizsiz keçinə bilməzlər. Ona görə də həmişə biz onların yanında, onlar da bizim yanımızda olurlar. Məni təəccübləndirən təzə şəhərbaşıdır. Necə ola bilər ki, indiyədək kürsü bülbülü onun yadına düşməsin?!”.

İkinci adından fəxarət duyan Şərbətalı bəyə bir dəfə demişdilər: “— Xaricdə mənəvi məziyyətləri test üsulu ilə yoxlayırlar. Anketdə bir neçə söz yazılır: pul düşkünü, qadın düşkünü, içki düşkünü, kürsü düşkünü. Bunların hansına aşiqsənsə, altından qara xətt çəkməlisən. Sənin kimi xəstəliyə düçar olanlar “kürsü düşkünü” sözlərinin altından xətt çəkir. Sən testsiz mahiyyəti eyni, şəkli cəhətdən fərqli olan “kürsü bülbülü”nə üstünlük verirsən. Necə adlanmasından asılı olmayaraq, geniş yayılmış bu xəstəlik uzunmüddətli müalicə tələb edir”. Şərbətalı bəy kəskin hərəkətlə mənanı arxaya atıb, şəkli önə çəkmişdi: “— Allah eləməsin ki, mən kürsü düşkünü olam. Mən kürsü bülbülüyəm!”.

Kürsü bülbülü birinciliyi uğrunda rəsmi olaraq yarış və ya müsabiqə keçirilməmişdi. Bununla belə, rəqiblər müxtəlif formalarda bir-birini sıxışdırmağa, üstələməyə, sıradan çıxartmağa çalışırdılar. Ancaq Şərbətalı bəy qeyri-rəsmi də olsa, birinciliyi əldən vermirdi. Hər gələn başçı ona daha çox ehtiyac duyduğundan kişi kürsü çempionluğunu qoruyub saxlayırdı. O, çempion bülbül kimi həmkarlarına yuxarıdan aşağı baxmaqda özünü haqlı sanırdı.

Şərbətalı bəyin nə elə bir vəzifəsi, nə aşan-daşan maaşı vardı. Buna baxmayaraq, bəydən, xandan əskik dolanmırdı. Rəhbərin ştatdankənar kürsü bülbülü olması onu sevimliyə çevirmişdi. Bütün qapılar üzünə açığıydı. Çoxları onun qulluğunda durmağa imkanını əsirgəmirdi. Kimin həddi nəydi ki, onun “hə”sinin qarşısına “yox” çıxaraydı.

Təzə başçının onu saya salmamasını heç cür anlaya bilmirdi: “Məgər ona tərif masajı lazım deyil? Axı o, tərifsiz necə keçinə bilər?! Axı kim mənim kimi onun əyrisini düz, qışını yaz kimi göstərə bilər?! Məgər o, bilmir ki, mən danışanda elə bil ilan ağzından ləl salır?.. Görəsən, Hindistan şəkərindən — mənim tərifimdən yan durmaqda rəhbərin məqsədi nədir? Özünə yazığı gəlmirsə, heç olmasa, mənə — “əməkdar” kürsü bülbülünə yazığı gəlsin”.

Sən demə, toy tamadalığı ilə kürsü bülbüllüyü ayrı-ayrı peşələrmiş. Günlərin birində dəbdə olan bir tamada toya dəvət olunmuş hörmətli qonağa — Şərbətalı bəyə xəbərdarlıq etmədən söz verdi. Bundan qeyzlənən Şərbətalı bəy onu aşağılayan tamadaya protest olaraq təbrik nitqi söyləməkdən imtina etdi: “Aşağı, aşağı, qatıqlı aşdan da aşağı?! Kürsü bülbülü özünə sığışdırıb toyda nitqmi söyləyəcəkdi?! Çəki, nüfuz bərabərliyi olmadığı üçün heç vaxt!”. Şərbətalı bəyin təklifdən imtina eləməsini toy tamadası nüfuzuna zərbə, özünə təhqir kimi qəbul etmişdi. O, dözə bilməyərək toydan sonra həmkarı ilə haqq-hesabı çürütmüşdü: “— Ay qoduq, özünü yuxarı tutub məni pisikdirməyə çalışdın? Bunu bacarmazsan! Axı sən kimsən? Özünə “kürsü bülbülü” deməklə deyil ey!.. Elə sən də bir başqa cür tamadasan. Fərqimiz ondadır ki, mən toyda coşub-daşıram, sən tribunada banlayırsan. Mən el şənliyinin sevimlisiyəm, sən rəsmi iclasların, yığıncaqların tütyəsisən. Mən beylə gəlinə tərif deyirəm, sən ancaq gəlinsiz bəyə — icra başçısına. Mən çörəyimi tərənnümdən çıxardıram, sən yaltaqlıqdan. Yanılma, sən heç vaxt məndən üstün ola bilməzsən!”. Şərbətalı bəy cavab qaytarmağa söz tapmamışdı. Yaxşı ki, qarşılaşma xəlvətdə olmuşdu.

Artıq bir həftəydi ki, təzə icra başçısı işə başlamışdı. Elə bil zəlzələ olmuş, kürsü bülbülləri yerin təkində itib-batmışdılar. Heç birinin səsi-sorağı gəlmirdi. Əgər gəlmiş olsaydı, ilk gediş Şərbətalı bəylə başlanmalıydı. O, rəhbərin şahmat taxtasında həmişə ağ fiqur olmuşdu. Bu səbəbdən də ilk gedişin müəllifliyi ona məxsus idi.

Onun axtarılmaması mümkün deyildi. Aşiqin məşuqəyə, bülbülün gülə ehtiyacı olduğu kimi, bir saylı rəhbərin də, bir saylı tərifçiyə ehtiyacı vardı. Bu adət bineyi-qədimdən belə qurulub. İndisə təzə şəhərbaşı köhnə nırxa əhəmiyyət vermirdi. Bəlkə də, iş, gedişat həqiqətən beləydi. Hətta belə olsaydı da, Şərbətalı bəy buna inana bilməzdi. Axı balıq susuz necə yaşaya bilərdi?! Gözü yolda, qulağı səsdə olan Şərbətalı bəy amadə dayanmışdı. O, səbirsizliklə, içini didən bir təlaşla səda gözləyirdi. Hələ ki, nə iş telefonu, nə ev telefonu, nə də cib telefonu təzə başçının adından onu kürsüyə dəvət edirdi. Bəlkə, o, nəzərdən düşmüşdü? Bəlkə, təzə başçı cəh-cəh vuran təzə bülbül eşqinə mübtəla olmuşdu? İnanmırdı. Axı hələ kürsü çempionluğu onun adıyla bağlıydı. Əmin idi ki, bir az tez-bir az gec, onu arayacaqdılar. Ona görə də o, hərbi hazırlıq keçən, döyüşə atılmaq anını yaşayan əsgər kimi hazır dayanmışdı. Yəqin vaxtaşırı cəh-cəh vurduğu kürsü onun sehrli səsi, çin-çin dəstələnən tərifləri üçün darıxırdı.

Deyirlər, “ehtiyatlı igidin anası ağlamaz”. Onu da deyirlər ki, “tez duran öküz yatan öküzün başını bulayar”. Şərbətalı bəy sınaqlardan çıxmış bu iki atalar sözünü iki qulağından sırğa kimi asmışdı.

Kişinin yuxusu qaçmışdı. Ona xəbərdarlıq mesajı ilə tez-tez “kişnəyən” zəngli saatın xidmətinə ehtiyac qalmamışdı. Nə gecə yata bilirdi, nə də gündüz. Elə gözünə çimir qonar-qonmaz diksinib ayılırdı: “Görəsən, onu baş binadan çağırmayıblar ki?”. Arvadından, uşaqlarından dönə-dönə soruşurdu. Hamısı da “yox” deyib dururdu. Şərbətalı bəy nağıllardan, rəvayətlərdən, təmsillərdən oxumuşdu ki, şirin işi tülküsüz keçə bilməz. Sadəcə, ayıq olmaq lazımdır. Arxayınçılıq dananı qurda verə bilərdi.

Qısa kürsü fasiləsi özünü göstərirdi. Yavaş-yavaş salamların sayı azalır, kef soruşmaların soyuqlaşması açıq-aşkar hiss edilir, evinə gələn bazarlıqların sanbalı kiçilir, xahişlərin ünvanı perikib ayrı səmtə yönəlirdi. O, hesab edirdi ki, uğursuzluqlar müvəqqətidir. Onun taleyinə bir metro oyunu düşüb. Yerin altına varanda da, üstünə çıxanda da ayağını eskalatorun pilləsinə vaxtında qoymalıdır. Yoxsa, büdrəyib işləyən çarxın arasına düşər, bununla da məhv olub gedərdi.

Yuxusuzluq kürsü bülbülünü əldən salmışdı. Uzun müddət bu vəziyyətə dözmək olmazdı. O, bir həftənin içində əməlli-başlı arıqlamış, rəngi avazımış, gözləri çuxura düşmüşdü. Özünü havalanan kimi aparırdı. Onda olan psixoloji dəyişiklik ev adamlarını da təşvişə salırdı. Onlara elə gəlirdi ki, ailə başçısı şəhər başçısının həsrətinə dözmədiyindən hissediləcək dərəcədə xərifləyib. O, ətrafındakılara qəribə gələn hərəkətlərinin fərqində deyil.

Sutkanın istənilən vaxtı o, çağırıla bilərdi. Ləngimək — yerini başqasına vermək deməkdir. Bu isə onun üçün ölümə bərabər olardı. Oğlu gördü ki, atası qalstuklu yatağa uzanıb. Səbəbini soruşdu. Qısa və aydın cavab aldı:

— Belə lazımdır!

Qızı gördü ki, atası paltarlı yatır. Təəccüblənən övlad indiyədək görmədiyi halın səbəbini soruşdu. Onun da sualı cavabsız qalmadı:

— Belə lazımdır!

Arvadı gördü ki, əri əyni geyinikli, başı silindirli, ayağı ayaqqabılı yorğanın altına girib. Ev sahibəsi, vəfalı həyat yoldaşı ərinin bu hərəkətindən vahimələnib soruşdu:

— Ay kişi, özündən xəbərin varmı? Bir məni başa sal görüm, bu, necə yatışdır? Dəli-zad olmamısan ki?

Yorğanın altından cavab gəldi:

— Belə lazımdır, arvad! Mən təzə başçının çağırışına hər an hazır olmalıyam. Gecikən həmişə gendən baxmağa məcbur olur.

Heyrətlənən ev sahibəsi əllərini dizlərinə çırpdı. Şappıltıdan hamı diksindi:

— Əyə, ay tifaqı dağılmış, bəlkə, heç səni axtaran olmayacaq? Sən hardan bilirsən ki, səni çağıracaqlar?

Yorğanın altından — quyu dibindən gələn bir səs eşidildi. Bu səs sayıqlamaya oxşayırdı:

— Fransa yağı!.. Hindistan şəkəri!.. Kürsü bülbülünün cəh-cəhi! Qaş üzüyə necə lazımdırsa, tərif də rəhbərə elə lazımdır.

Şərbətalı bəy tükənməkdə olan gücünü səfərbər etdi. Qəlbinin dərinliyindəki dirənişli inamın qübbəsində bir şübhə göyərməyə başladı: “Bəlkə, şəhərbaşı elə bilir ki, mən şəhərdə yoxam, uzaqlardayam? Bəlkə, o, məni axtarıb tapa bilmir? Paxıllarım, əleyhdarlarım ona yalan məlumat ötürməklə çaşdıra bilərlər. Mənim borcum ona əl uzatmaq, hayına yetməkdir”.

Xəstəhal kürsü bülbülü özünü toplayıb radio qovşağına getdi, əlüstü səsini yazdılar. Məqsədi bunu demək idi: “— Cənab başçı, mən buradayam!”. Oradan birtəhər televiziya şirkətinə süründü. Xahişinə əməl edib çıxışını lentə aldılar. Məqsəd eyni idi: “— Cənab başçı, mən buradayam!”. İki gündəlik qəzetə müxtəlif məzmunlu müsahibə verdi. Yenə hədəf biriydi: “— Cənab başçı, mən buradayam!”.

(Ardı 7-ci səh.)

# Vaqif İbrahimoğlunun teatr dünyası



Çağdaş Azərbaycan teatrının istiqamətini təyin edən, öz yaradıcılığında milli teatr ənənələri ilə dünya teatr prosesinin qabaqcıl təcrübələrini üzvi şəkildə birləşdirən rejissorlardan biri də Vaqif İbrahimoğludur.

Vaqif İbrahimoğlu bir rejissor kimi fəaliyyətə Eksperimental Teatr Studiyasından başlayıb. Gənc, istedadlı rejissorun studiyaçılığa meyli onun eksperimental, yenilikçi, qeyri-standart rejissurası ilə izah olunmalıdır. V.İbrahimoğlunun studiyaçılıq meyli yaradıcılığının sonrakı dönəmlərində də özünü göstərir.

Rejissor elə ilk işi olan "Əhvalat vaqe olur" tamaşası (tamaşa Sultan Məcid Qənizadənin "Xor-xor", Cəlil Məmmədquluzadənin "Yığıncaq" və Cəfər Cabbarlının "Yaylağa gedir" bir pərdəli komediyalarının kompozisiyaları əsasında hazırlanıb) ilə seçdiyi sənət istiqamətini, yaradıcı ideallarını bəyan etdi. Abbas Mirzə Şərifzadə adına Aktyor Evinin nəzdində fəaliyyət göstərən Teatr-studiyasında quruluş verdiyi iki tamaşa — "Qədim nəslin nümayəndələri" A.P.Çexovun "Evlənmə", B.Şounun "Lord Avqust iş başında..." və L.Pirandellonun "Axmaq" bir pərdəli pyesləri əsasında) və "Məcnun" (Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasının motivləri əsasında, rus dilində) tamaşaları ilə V.İbrahimoğlu öz yaradıcılıq istiqamətinin konturlarını cızdı. Amma "Vaqif İbrahimoğlunun Aktyor Evindəki eksperimental teatr-studiyasının aqibəti acı oldu. Anarın böyük səylərinə baxmayaraq, o illərin ideoloji və mədəniyyət rəhbərləri bu təşəbbüsə biganə qaldılar, studiyanı yaşatmadılar" (İlham Rəhimli). Deməzdim ki, bu studiyanın aqibəti acı oldu, çünki studiya bağlansa da, Vaqif İbrahimoğlu və həmfikirləri burada başladıqları işi M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) nəzdində fəaliyyət göstərən Tədris Teatrında davam etdirdilər. Bir də ki, rejissorun özünün də dediyi kimi, "Nəticə heç nə, proses hər şeydir". Aktyor Evinin nəzdindəki teatr-studiyanın fəaliyyəti isə teatr aləmində özünütəsdiq və teatr konsepsiyasının realizəsi prosesində tramplin rolunu oynadı. Bu prosesdə növbəti mərhələni isə Tədris Teatrının səhnəsində hazırladığı "Zəncirbənd" (Anar), "Ac həriflər" (Əbdürrəhim bəy Haqverdiyev), "Yaylağa gedir" (Cəfər Cabbarlı), "Var olsun günəş" (Kamal Aslanov), "Güneylər, quzeylər" (Rəsul Rza), "Diqqət! Başlayıram" (Rəhman Əlizadə), "Təskinlik verməyi unutmayın" (Antuan de Sent Ekzüperinin "Balaca şahzadə" əsəri əsasında), "Komsomol" (Səməd Vurğun) kimi tamaşalarla gerçəkləşdi. Doğrudur, V.İbrahimoğlu Musiqili Komediya Teatrına baş rejissor təyin edildikdən sonra bu prosesdən bir qədər uzaqlaşdı. Musiqili Komediya teatrındakı fəaliyyəti dövründə də V.İbrahimoğlu rəsmi iş saatından sonra öz dəstəsi ilə seçdiyi teatr konsepsiyasına uyğun tamaşalar hazırlayır, hələ Aktyor Evində başladığı teatr eksperimentlərini, axtarışlarını davam etdirirdi. Nəhayət bu axtarışlar teatr prosesimizin avanqardında dayanan V.İbrahimoğlunun öz teatrını yaratması ilə nəticələndi. Rejissorun milli teatr poetikasını yaratmaq arzusu və bu yolda mətin mübarizəsi artıq fərqli konsepsiya ilə işləyən, fərqli bədii-estetik prinsiplərə söykənən yeni bir teatrın yaranmasını zərurətə çevirdi. Əslində, V.İbrahimoğlunun yaradıcılığını teatr fəaliyyətinə başladığı ilkin dövrdən etibarən məhz yuğ tipli, yuğ amallı bir teatrın yaradılmasına doğru bir yol kimi dəyərləndirmək olar. Rejissorun quruluşunda səhnə həyatı tapan, az qala, hər biri hadisəyə çevrilən bütün tamaşalar isə bu yolda atılan növbəti addım idi və nəhayət 1989-cu ildə Həsənağa Turabovun təşəbbüsü və yaxından köməkliyi nəticəsində Akademik Milli Dram Teatrının nəzdində "Yuğ" Teatr-Studiyası açıldı. 1992-ci il 18 oktyabr tarixində bu studiya dövlət statusu aldı.

"Yuğ" studiyası ilə "Yuğ" Dövlət Teatrı arasında o qədər də ciddi yaradıcı fərqlər mövcud deyil və onların fəaliyyəti vahid bir prosesin mərhələləri kimi dəyərləndirilməlidir. "Yuğ"un 17 illik fəaliyyətinə qısa nəzər salarkən görürük ki, bu gün Azərbaycan teatr məkanında öz orijinal sənət yolu olan, əhatəsinə əsasən ölkənin ziyalı təbəqəsindən ibarət geniş tamaşaçı kontingenti toplaya bilən və milli teatr prosesinə fəal təsir göstərən "Yuğ" adlı bir teatr mövcuddur. Bu gün "Yuğ" Teatrının ünvanına deyilən modernist, postmodernist teatr ifadələrini kifayət qədər sıx-sıx eşidirik. Doğrudur, modern, postmodern teatr düşüncəsi "Yuğ"a yabançı nəsnələr deyil, amma bu ifadələr "Yuğ" Teatrının fəaliyyətini xarakterizə etmir. "Yuğ"u səciyyələndirən başlıca amil bu teatrın milli sənət düşüncəmizə, xalq oyun-tamaşa mədəniyyətindən qaynaqlanan teatr ənənələrinə müraciət etməsi və bu ənənələri dünya teatr prosesinin qabaqcıl təcrübələri ilə birləşdirə bilməsindən ibarətdir. Bu səhnədə oynanılan bütün tamaşalarda milli oyun-tamaşa mədəniyyətinin ünsürlərini sezmək mümkündür. Əslində, teatrın adı da onun başlıca yaradıcılıq istiqamətlərini kodlaşdıran amil kimi çıxış edir. Bəllidir ki, yuğ türklərin ən qədim mərasimlərindəndir və bu oyun-mərasimləri "Yuğ" Teatrının tamaşalarının modeli kimi dəyərləndirilə bilər. Bu teatrın fərqli, bənzərsiz yaradıcılıq yolu olduğu heç kəs üçün sirr deyil. Bu bənzərsizliyə zəmin yaradan amillərdən biri də "Yuğ"un öz poetikası olması və fəaliyyətində bu poetikaya istinad etməsidir. "Ruhun hikmətləri" anlamına gələn "Psixosof" poetikasının adı da bu teatrın tamaşalarını və ümumilikdə bütün yaradıcılığını daha dərindən anlamaq üçün açar rolunu oynayır. İstinad etdiyi poetikanın adından da göründüyü kimi, yaradıcılığında ruhi kontakta, ruhi hala çox böyük önəm verir, insan ruhunun yaşamı, insanın ruhi-psixodelik halı onun yaradıcılığının mərkəzində dayanır. Məhz bu fakt "Yuğ" Teatrının təqdim etdiyi tamaşaların dəyərləndirmə vasitələrini də köklü surətdə dəyişir.

Vaqif İbrahimoğlu rejissurasının, poetikasının məğzini anlamaq üçün mütləq rejissorun teatr, sənət haqqında düşüncələri ilə tanış olmaq lazımdır. "Mənim üçün ən başlıca olanı haldır! Nə ritmdir, nə musiqidir, nə ideyadır, əsas sehrli haldır! Yəni, əstəğfürullah, məscidə gəliriksə, biz ora xüsusi əhval-ruhiyyə, daxili istək-arzu ilə, psixoloji hadisələrdən doğrulmuş saf inamla daxil olmuruqsa, ora getməyin heç bir əhəmiyyəti yoxdur". V.İbrahimoğlu teatrı insanın özü-özü ilə, iç dünyası ilə dialoqda, təmasda olduğu bir yer kimi qiymətləndirir. Rejissor üçün həmin məqam müqəddəsdir, əzizdir, başlıcadır. İnsan ruhunun yaşamını, ruhi-psixodelik halı teatr sənətinin qayəsi kimi qavrayan sənətkar bu halın yaranmasında xüsusi çəkisi olan, sözə, musiqiyə əhval-ruhiyyə aşılayaraq onu təbii və emosional edən ritmi ordunu səfərbər edən sərkərdə ilə müqayisə edir.

"Yuğ"un repertuarında teatrın kredosuna, amalına, poetikasına mərhəmlik duyulur. Elə ilk tamaşası — Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poemasının əsasında hazırlanan "Salam" tamaşası ilə Teatr öz yaradıcılıq yolunu müəyyənləşdirdi. Daha sonra səhnələdiyi "Açar", "Dad", "Oğul" kimi tamaşalarla sənət axtarışlarını davam etdirdi. "Yuğ"un 17 illik fəaliyyəti dövründə repertuarında yer alan tamaşalara nəzər saldıqda Teatrın klassik irsimizin nümunələrinə də ("Kitabi-Dədə Qorqud" dastanı, Nizami Gəncəvi, Məhəmməd Füzuli, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid və s.), müasir yazarların (Ramiz Rövşən, Afaq Məsud, Vaqif Bayatlı, Firuz Mustafa, Mehman Musabəyov, Kamal Abdulla və s.) əsərlərinə də müraciət etdiyinin şahidi oluruq. Repertuarda əcnəbi müəlliflərin (Şekspir, Ekzüperi, Bekket, Höte, Çexov, Qoqol, Yamamoto və s.) əsərləri əsasında hazırlanan tamaşalar da az deyil. "Yuğ"un repertuarına qısa ekskursdan da göründüyü kimi, teatrın repertuarı çox rəngarəngdir, amma bu repertuarda rast gəldiyimiz əsərləri birləşdirən bir amil var; onların hər biri ilahi mətləblərə, sakral, arxetipik məna qatına malikdir.

Son dönəmlərdə — Vaqif İbrahimoğlu dünyasını dəyişdikdən sonra da "Yuğ"un yaradıcılıq fəaliyyətinin uğurla davam etdirməsi, ustad rejissorun yetişdirdiyi sənətçilərin uğurlu işləri bir daha sübut edir ki, "Yuğ"da yeni rejissor və aktyor nəsli yetişir. YUĞ Teatrında çalışan istər rejissorların, istərsə də çox yüksək potensiala malik gənc aktyorların sənətkarlıq səviyyəsi və sənətə münasibətləri teatrın gələcəyi haqqında ümidlə danışmağa əsas verir.

**Aynur İSRAFİLOVA**

# Əvvəl "YARAT!", sonra "YAY!"

## İÇƏRİŞƏHƏRDƏ DAHA BİR İNCƏSƏNƏT LAYİHƏSİ REALLAŞIB

İçərişəhərdə tikintisi yenicə başa çatan və bundan sonra rəssamların incəsənət eksperimentlərinin daimi səhnəsi olacaq "YAY!" qalereyasının açılış mərasimi keçirilib. Qədim İçərişəhərin mərkəzində fəaliyyətə başlayacaq "YAY!" qalereyası üç gənc rəssamın — Faiq Əhmədin, Fərid Rəsulovun və Elşən İbrahimovun əsərləri nümayiş etdiriləcəyi sərgi ilə birgə açılıb.

"YARAT!" Müasir İncəsənət Məkanı kimi, Aidə Mahmudovanın təşəbbüsü ilə yaradılan "YAY!" qalereyası da qarşısına müasir Azərbaycan incəsənətini tam və maraqlı şəkildə təqdim, habelə bakılıları dünya incəsənətində peyda olan yeni cərəyanlar və adlarla tanış etmək məqsədini qoyub: "Qalereyanı yaratmaq haqqında çoxdan fikirləşirdik. Bu, bizim ilkin planlarımızdan biri idi. Burada daha çox rəssamın əsərləri nümayiş etdiriləcək, müxtəlif tədbirlər, sərgilər keçiriləcək. Dünya standartlarına əsasən, bəzi sərgilərdə yalnız qalereyalar vasitəsilə iştirak etmək mümkündür. "YAY!" Müasir İncəsənət Qalereyası bizə bu imkanı yaradacaqdır. Ümumiyyətlə, qalereyanın çox müsbət cəhətləri vardır. Bir-birini tamamlayan "YARAT!" qeyri-kommersiya təşkilatının və "YAY!" Müasir İncəsənət Qalereyasının son məqsədi Azərbaycanın müasir incəsənətinin təbliği və rəssamlara kömək etməkdir". Bu sözləri "YAY!" Müasir İncəsənət Qalereyasının açılış mərasimində jurnalistlərə açıqlamasında "YARAT" qeyri-kommersiya təşkilatının rəhbəri Aida Mahmudova deyib. O, tikinti, məkanın təmiri və sərgidə nümayiş olunacaq əsərlərin toplanmasına müəyyən vaxt getdiyini qeyd edərək, qalereya ilə bağlı məqsədin artıq reallaşdığını diqqətə çatdırıb. "YARAT!" qeyri-kommersiya təşkilatı vasitəsilə rəssamlara maliyyə dəstəyinin göstərilmə imkanı olmadığını deyən Aida Mahmudova, "YAY!" Müasir İncəsənət Qalereyası və məkanın hesabına rəssamlara maliyyə dəstəyi göstərməyin mümkünlüyünü bildirib.

A. Mahmudova açıqlamasında "YAY!" qalereyası və "YARAT!" Müasir İncəsənət Məkanı bir-birinin fəaliyyətini tamamlayacağına və gücləndirməklə səmərəli fəaliyyət göstərən tandem yaradacağına əminliyini ifadə edib: "Məsələn, "YAY!" qalereyası "YARAT!" Müasir İncəsənət Məkanının reallaşdırdığı təşəbbüsləri maliyyə və texniki cəhətdən dəstəkləyəcək, "YARAT!" Müasir İncəsənət Məkanı isə əvvəlki kimi, gələcək sərgilərin də konsepsiyasının təməlini təşkil edəcək ideyaların və istedadların mənbəyi kimi çıxış edəcək".

Sərgidə əsərləri sərgilənən Faiq Əhmədin əsərləri artıq bu il "Art Dubay" müasir incəsənət yarmarkasında nümayiş etdirilərək tənqidçilər və mütəxəssislər tərəfindən yüksək qiymətləndirilib.

Azərbaycanı Venesiya Biennalesində təmsil edən rəssam Fərid Rəsulovun əsərləri isə Şərq mövzusuna özünəməxsus Qərb yanaşması ilə seçilir. Elşən İbrahimov isə xalça şəklinin əsasında yaradılan kompyuter oyununu tamaşaçılara təqdim edir. Onun "Xalça oyunları" yekrəng və möhtəşəm ünsürlərin vəhdətidir, həmçinin XXI əsrdə yaşayan yeniyetmənin rəqəmsal təfəkkürünü və xalqın qədim ənənələrini əks etdirir.

Sərgidə iştirak edən bütün müəllifləri Azərbaycan xalçasına yeni ömür bəxş etmək istəyi və zamanın çağırışına cavab olaraq mədəniyyətin dəyişmək və təkamül qabiliyyətini isbat etmək arzusu birləşdirir. Sərgi noyabrın 11-dək davam edəcək.

**S.MÜRVƏTQIZI**

# İstanbulda azərbaycanlı rəssamın sərgisi açılıb



İstanbulda azərbaycanlı rəssam Emil Əzizin "ArtİStanbul" adlı sərgisi təşkil edilib.

APA-nın məlumatına görə, "Beşiktaş Deniz Müuzesi"ndə əsərlərini sərgiləyən gənc rəssam sərgini İstanbula köçməsinin 10 illiyinə həsr edib. İlk genişmiqyaslı sərgisini təqdim edən Emil Əziz gələcəkdə də Türkiyədə sərgilər keçirməyi planlaşdırır.

"ArtİStanbul" adlı sərgi rəssamın həyatının qısa xülasəsini, eyni zamanda Bakını və Emil Əzizovun uşaqlığını əks etdirir.

# Mirvarid Dilbazi 100 illiyində anılıb

Dünən Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında Azərbaycanın Xalq şairi Mirvarid Dilbazinin 100 illik yubileyinə həsr olunan xatirə tədbiri keçirilib.APA-nın xəbərinə görə, tədbirdə çıxış edən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev onun Azərbaycan ədəbiyyatında özünəməxsus yerinin olduğunu deyib. Nazir bildirib ki, M. Dilbazi çox böyük yaradıcılıq yolu keçən şairədir.

Tədbirdə millət vəkili, professor Nizami Cəfərov, professor Rüstəm Kamal, Yazıçılar Birliyinin sədri Anar, şairə Firuzə Məmmədli və başqaları çıxış ediblər.

Xatirə tədbiri daha sonra bədii hissə ilə davam etdirilib. Aktyorların ifasında M. Dilbazinin şeirləri səslənib, sözlərinə bəstələnən mah-

# Muğam Teatrı Beynəlxalq Muğam Mərkəzi ilə birləşdiriləcək

"Bakıda fəaliyyət göstərən Muğam Teatrının Beynəlxalq Muğam Mərkəzi ilə birləşdirilməsi barədə düşünürük. Çünki beynəlxalq səviyyəli bir muğam mərkəzi ola-ola, Muğam Teatrının ayrıca fəaliyyət göstərməsi məntiqəuyğun deyil". Bunu APA-ya açıqlamasında mədəniyyət və turizm naziri Əbülfəs Qarayev deyib.

Nazirin sözlərinə görə, bu səbəbdən yaş senzi ilə bağlı Muğam Teatrının rəhbəri vəzifəsindən uzaqlaşdırılan Arif Qaziyevin yerinə təyinat nəzərdə tutulmur. "Nizami Kino Mərkəzinə direktor təyinatı məsələsinə toxunan nazir, hazırda bu quruma rəhbər təyinatı yönündə seçim aparıldığını qeyd edib.

# Kürsü bülbülü

(Əvvəli 6-cı səh.)

Cənab başçı isə onu eşitmirdi ki, eşitmirdi. Şərbətalı bəyin başadüşülməz başçının idarəetmə üsuluna acığı tuturdu: "Dəstəksiz qılınc olmaz. Sən mənim vasitəmlə özünə yol açmalısan. Hələ ağzın isti yerdədir. Zamanı gələndə biləcəksən ki, mən sənə nə qədər lazımammış. Mövqeyində dönüş etməsən, sonucda peşman olacaqsan. Peşmançılıq isə icraçısına deyil, kənardan baxana xeyir verə bilər".

Şərbətalı bəy başıpapaqlı, ayağı ayaqqabılı yatağa girirdi. Ona görə ki, çağırış səsi eşidən kimi vaxt itirmədən hər şeyə hazır olsun. Çağırış işə eşidilmirdi. Kürsü bülbülü gərgin vəziyyətə dözməyib axır ki, geyimli-keçimli birdəfəlik yorğan-döşək sakini oldu. O, əməlli-başlı titrətmə gətirdi. O, əməlli-başlı havalandı. Və havalı-havalı gah qışqırır, gah da ağlayırdı:

— Kürsüsüz mənə həyat yoxdur! Mən bülbül kimi kürsüyə qonmasam, icazəli cəh-cəh vurmasam, rəhbərin ruhunu pərvazlandırmasam, dəli olacağam, öləcəyəm! Əzizlərim, mənim sağalmaz dərdimə əlac edin!

Şərbətalı bəyin səhhəti saatbasaat ağırlaşmaqdaydı. Sağlamlığı təhlükə qarşısındaydı. Çörəyini yeyənlər bu vəziyyətə biganə qala bilməzdilər. İtki qorxusunu hamıdan tez dərk edən vəfalı həyat yoldaşı əlini telefon dəstəyinə ataraq təcili tibbi yardım məntəqəsinə zəng etdi. Xəstənin nədən şikayətləndiyini soruşdular. Ev sahibəsi dəqiq cavab verə bilmədi. Ancaq bunu deyə bildi:

— Xəstəliyin özünüz müəyyənləşdirə bilərsiniz. Bilirsiniz ki, doğru diaqnoz müalicənin yarısı deməkdir.

On beş dəqiqədən sonra həkim şəfqət bacısı ilə birlikdə içəri girdi. Müayinəsiz Şərbətalı bəydən eşitdikləri ona tibbi bələdçilik etdi. Uzaqdan muğam səsi gəlirdi. Hansı xanəndəsə Nəbatinin "Gəlsin-gəlməsin?" şeiri ilə qəlbləri yol açırdı: "Bülbül gülüstana gəlsin-gəlməsin?". Xanəndə bu misrada "gülüstan" sözünü işlətməklə "təhrifə" yol vermişdi. Bu "yanlışlıq" özündə olmayan xəstəni daha da əsəbiləşdirirdi. O, həkimə dərdini demək əvəzinə, etiraz notasına başladı:

— Bu xanəndə haranın avarasıdır ki, efirə buraxılbar? Nadanlığı ucbatından ustad şair Nəbatinin klassik şeirini alt-üst etdi. Misranın əsli belədir: "Bülbül kürsüstana gəlsin-gəlməsin?". Şair "bülbül" dedikdə aşiq insana işarə edir. Ağlı başında olan, xeyrini-şərini anlayan, gələcəyini düşünən bülbül — insan heç vaxt kürsünü — kürsüstanı qoyub, bəlası əskik olmayan gülüstana üz tutmaz.

— Həkim tibb ləvazimatına əl atmadan dedi:

— Deyəsən, sizin kürsü ilə ətəşli bir məhəbbətlə bağlılığınız var. Sevgi insanı xoşbəxt etdiyi qədər, bədbəxt də edə bilir. Xahiş edirəm, danışasınız.

Müayinəçi yardımçı həkim olmaqdan başqa, həm də arif adam — filosof idi. Hər halda kürsü bülbülünə belə gəldi. Onu axtardığı Loğman bildiyindən dərdini gizlətmədi. Bu dərdə olsa-olsa, yenicə kəşf etdiyi Loğman əlac edə bilərdi:

— Başına dönüm ay Loğman, bəlkə, sən deyəsən, bizim şəhərin təzə başçısı nədən kürsüyə — tərif kosmodromuna gedən yola şlaqbaum qoyub? Axı illərlə bu səhnədə zəhmət çəkən, püxtələşən sənətkarlar var! İrili-xırdalı hər vəzifə sahibinin böyür-başında onlarla kürsü bülbülü hərlənir. Onların dəqiq uçotunu aparmaq müşkül məsələdir. Bu sahənin lideri kimi mənim borcum onların da qayğısına qalmaqdır. Birdən-birə onların peşəsinə veto qoymaq, çörəyinə bais olmaq, taleyin ümidinə buraxmaq olarmı? Bu ən azı ədalətsizlikdir. Dünyanın hər yerində belə kadrlara ehtiyac duyulmaqdadır. Onu da unutmaq olmaz ki, artıq bizdə peşə xəstəliyi əmələ gəlib. Biz fəaliyyətdə olmasaq, ölərik. Heç qarşı tərəfin də sağlamlığına zəmanət vermək mümkün deyil. İndi qartalı dağ zirvəsinə qonmağa dəvət etmirlər. Belə olan halda, kürsü bülbülləri xəstələnməsin, neyləsin?! Kömək edin, elə bir dərman buyurun ki, mən adət etdiyim kürsüyə yenidən qovuşum, yoxsa öləcəyəm! Mənim itkim ictimai-siyasi məzmun daşıyacaq! Mən ölsəm, rəhbərin teli daraşsı, əli yaraqsız, evi çıraqsız qalacaq! Təkcə mənə yox, ona da yazığınız gəlsin!..

Həkim Şərbətalı bəyi diqqətlə dinlədikdən sonra qəti qərarını verdi:

— Pasiyenti kürsü bülbülləri xəstəxanasına götürün!

Vəziyyətin ciddi olduğunu duyan ev sahibəsi ağlamsındı:

— Həkim, sizi yaxşı başa düşmədim.

Həkim eyni ahənglə:

— Xanım, sizin əriniz kürsü düşkünü xəstəliyinə mübtəla olub. O, uzunmüddətli müalicə qəbul etməlidir.

+++

1 saylı kürsü bülbülləri xəstəxanasında gərginlik yarandığından bərk mübahisə gedirdi. Çarpayı çatışmazlığı yeni xəstənin — Şərbətalı bəyin qəbulunu probleme çevirmişdi. İş o yerə çatmışdı ki, baş həkim də qızğın mübahisəyə qoşulmalı olmuşdu. Xəstəni nə qəbul etmək, nə də geri qaytarmaq mümkünüydü. Yeganə çıxış yolunu onun çarpayısını müvəqqəti olaraq dəhlizdə yerləşdirməkdə görürdülər. Bəyin ömür-gün yoldaşı, vəfalı arvadı bunu hörmətsizlik kimi, ərinin adına-sanına yaraşmayan hal kimi qəbul etdiyindən qətiyyətlə narazılığını bildirirdi:

— Heç bilirsiniz Şərbətalı bəy kimdir, hansı şərəfli peşənin sahibidir? O, uzun illərdir ki, şəhər rəhbərləri tərəfindən əvəzolunmaz kürsü bülbülü kimi dəyərləndirilir. O, sıradan olan adam deyil. O, öz sahəsinin çempionu kimi qəbul edilməli, qulluğunda yüksək səviyyədə durulmalıdır.

Baş həkim xəstə sahibini dilə tutmağa çalışır, mövcud reallığı qəbul etməsini istəyirdi:

— Xanım, biz Şərbətalı bəyi yaxşı tanıyırıq. Bir bülbül olaraq onun cəh-cəh vurmasını az görməmişik. Bizim də ona böyük hörmətimiz var. Ancaq nə etməli ki, boş yerimiz yoxdur. Yeni şəhər başçısının gəlişindən sonra bu sahədə böyük tünlük yaranıb. Mən iki xəstəni bir çarpayıda yatırda bilmərəm ki...

Qadın bildiyini babasına vermir, aramsız axıtdığı göz yaşları ilə ərinin böyüklüyünü diqqətdə saxlamağa çalışırdı:

— Hər sahənin öz ustası var. Axır-axırda qədri-qiyməti bilinməyən Şərbətalı bəy də kürsü dahisidir. O, rəhbərlər uğrunda sinəsini kürsülərə sürtməkdən döşünün tükünü aparıb. Heç olmasa, tük xidmətini nəzərə alın də...

Baş həkim xəstə sahibinin kükrəyişini səngitmək üçün var qüvvəsini əsirgəmirdi:

— Elə deməyin, ay xanım, vallah, tük xidmətini nəzərə alırıq. İnsafən, həmkarlarının da əməyini danmaq olmaz. Hərçənd, avazla ötməkdə Şərbətalı bəyin rekordunu təzələyə bilməsələr də, o yazıqların da sinələri tükü yolunmuş qaz döşünə oxşayır. Gözləmək lazım gələcək. Kürsü xəstəliyi tezliklə sağalan mərəz deyil. Ona uzunmüddətli və ardıcıl müalicə lazımdır. Bu sahədə bizim xəstəxana yeganə olduğundan bu cür basırıq yaranıb. Dözməyə və gözləməyə məcburuq. Bəlkə...

Atalar necə də gözəl deyib: "Xəstə sağalası olsa, təbib qarşı gələr". Baş həkim "bəlkə"sini tamamlamamış əlidəvətnaməli başqa bir baş həkim içəri girdi. Və sad xəbər verirmiş kimi əlindəki dəvətnaməni həmkarına uzatdı:

— Bu gün saat 3-də rəhbərliyi mənə həvalə edilmiş 2 saylı kürsü bülbülləri xəstəxanasının açılışıdır. Sağ olsun, səhiyyə idarəsinin müdiri. Bu sahədəki kəskin ehtiyacı nəzərə aldığından bu tipli ikinci xəstəxananın tikintisini başa çatdırdı. Yeni xəstəxananın istifadəyə verilməsi sizin vəziyyətinizi yüngülləşdirməyə kömək edəcək. Əziz həmkarım, sizi 2 saylı kürsü bülbülləri xəstəxanasının təntənəli açılışında iştirak etməyə dəvət edirəm. Bir kaç kəlmə də təbrik sözü dilə gətirsəydiniz, lap sad olardıq.

Sanki çıxış yolu göydən zənbillə düşmüdü. Tərəflər ümidlə bir-birinin üzünə baxdılar. 1 saylı xəstəxananın baş həkimi sevincək:

— Biz yuxarılara havayı yerdən əl çalmırıq. Adamın işi gərək yuxarıdan düzələ. Necə ki, indi düzəldi, — dedi və sonra həmkarına müraciət etdi. — Şəhərimizin çox hörmətli sənətkarı, kürsü bülbülü tribunaya dəvət almadığından bir balaca xəstələnib. Bizdə bütün palatalar doludur. Belə bir şəxsiyyətin dəhlizdə saxlanmasını özümə bağışlaya bilmirəm. Mənə kömək əli uzadın, Şərbətalı bəyi sizin xəstəxanaya yerləşdirək. Uduzmazsınız, elə onun adının gətirdiyi imic sizə bəs edər.

Özündə olmayan Şərbətalı bəy danışıqları eşitməklə kifayətlənirdi. Onun hadisələrə müdaxilə etməyə imkanı yox idi. Əvəzində xanımı xilaskarlara acizanə surətdə yalvarırdı:

— Xahiş edirəm!.. Çox xahiş edirəm!.. Həyat yoldaşımı kürsü xəstəliyindən xilas edin!

2 saylı xəstəxananın baş həkimi vəziyyətə dərindən bələd olduqdan sonra həmkarının təklifinə qarşı məmnunluğunu gizlətmədi:

— Biz həkimlər Hippokrat andı içmişik. Vəzifəmiz xəstənin son anına qədər ona qulluq göstərməkdir. Xüsusilə, daha əlverişli şərait olanda. Bax, indi kömək əlimi uzadıram. Bu saat 10 kürsü bülbülümüz xərəkdə uzanıqlı halda xəstəxananın açılışını gözləyir. Şərbətalı bəylə ilk gəbulda fəxri xəstələrin sayı 11-ə yüksələcək. Ancaq liderin lider yeri olmalıdır. Biz onu 11-ci yox, 1-ci xəstə kimi qəbul edəcəyik. Razılaşdıq?

Qarşı tərəfin həmisı:

— Razılaşdıq!

Bu dəfə hər iki tərəf birlikdə:

— Allah şəfasını versin!

Şərbətalı bəyin uzandığı xərəyin ağzını geri döndərdilər. Şəfa diləkli dualar eşidilməyə başladı. Əlbəttə, başsağlığı verməzdən əvvəl xəstəyə şəfa diləmək lazımdır.

**Gəncə şəhəri**
**Mart, 2011.**

# Berti Foqts azərbaycanlı məşqçiləri tənqid etdi

## "RƏŞAD SADIQOV RUSİYA İLƏ OYUNU BURAXA BİLƏR"

"Bir neçə gündür ki, toplanışdayıq. Çox istərdim ki, açıq məşqdə jurnalistləri də görüm, amma təəssüf ki, görmədim".

Bu sözləri Azərbaycan milli komandasının baş məşqçisi Berti Foqts dünən keçiridiyi mətbuat konfransında söyləyib.

O bildirib ki, DÇ-2014-ün Rusiyaya qarşı oktyabrın 16-da "Lujniki"də baş tutacaq qarşılaşmada süni ortükdə oynayacaqlar: "Ona görə də biz bütün məşq prosesini süni meydançada keçiririk. Hazırlığın gedişatından razıyam. Hiss edirəm ki, futbolçular Rusiya ilə oyunu səbirsizliklə gözləyirlər".

Azərbaycan milli komandasının kapitanı Rəşad Sadıqov oktyabrın 16-da Rusiya milli komandasına qarşı Moskvada keçiriləcək dünya çempionatının oyununu buraxa bilər.

Bu haqda millimizin baş məşqçisi Berti Foqts məlumat verib.

"Komandada ən böyük problemimiz Rəşad Sadıqovla bağlıdır. İki gün əvvəl zədələnib. Əgər məşqlərdə iştirak etməsə, Moskvada oynamayacaq" — deyə Foqts bildirib.

Rusiya ilə oktyabrın 16-da keçiriləcək DÇ-2014-ün seçmə oyununda Azərbaycan millli komandasının qapısını Kamran Ağayev qoruyacaq.



Berti Foqts qeyd edib ki, Kamran Ağayev neçə müddətdir klubda oynamasa da, əsas heyətdə bu futbolçuya şans verəcək: "Kamran Ağayev Azərbaycanda birnömrəli qapıçıdır".

Foqts milliyə dəvət olunan digər qapıçılar haqda da fikir bildirib: "Anar Nəzirovun son iki matçda əsas heyətdə oynaması yaxşı haldır. Səlahət Ağayev isə inşikaf edir".

Alman məşqçi, milli çempionatın doqquzuncu turunun təxirə salınmasına münasibət bildirib.

Foqts deyib ki, budəfəki tur millinin hazırlıq prosesinə görə başqa vaxta keçirilməyib.

"Bu tur millinin toplanışına yox, Azərbaycan keçirilən dünya çempionatına görə təxirə salınıb" — deyə o bildirib.

"Azərbaycan futbolunun yaxşı gələcəyi var. Dövlət tərəfindən bu idman növünün inkişafına yaxşı maliyyə ayrılıb".

Milli komandamızın baş məşqçisi Berti Foqts FİFA-nın rəsmi saytına açıqlamasında belə deyib.

Almaniyalı mütəxəssis qeyd edib ki, AFFA-nın futbolun inkişafı yönündəki fəaliyyəti doğrudur. Bununla belə, Foqts klubları tənqid edib: "Təəssüf ki, eyni sözü klublara şamil etmək olmur. Onların məşqçiləri isə öz üzərlərində yetərincə işləmirlər. Qarşıda hələ çox şey edilməlidir".

### *Rəşad Sadıqov:* "Belə vəziyyətdə Rusiyaya qarşı oynamaq düz olmaz"



"Hazırda zədəliyəm. Sağ ayağım burxulduğu üçün ora su yığılıb".

Qol.Az-ın müxbiri ilə söhbətində bu sözləri milli komandamızın kapitanı Rəşad Sadıqov deyib.

Qeyd edək ki, zədəsi səbəbindən R.Sadıqov Rusiya ilə oktyabrın 16-da baş tutacaq DÇ-2014-ün seçmə oyununu buraxa bilər.

"Məşq edə bilmirəm. Lakin bir daha həkim müayinəsindən keçəcəyəm. Bundan sonra Rusiyaya qarşı oynayıb-oynamayacağım dəqiqləşəcək" — deyə R.Sadıqov bildirib.

R.Sadıqov deyib ki, əgər bir həftə vaxtı olsaydı, zədəsini tam sağalda bilərdi: "Amma düşünürəm ki, bir həftə məşq etmədən Rusiya kimi komandaya qarşı oynamaq düz olmazdı".

### *Eder Bonfim:* "AZAL-a qalib gəlməsəydik..."

"Xəzər Lənkəran"ın braziliyalı futbolçusu Eder Bonfim Premyer Liqada AZAL üzərində qazanılan son qələbə, eləcə də komandasının hazırkı durumu ilə bağlı Qol.Az-a açıqlama verib.

O, artıq pis günlərin geridə qaldığına inandığını bildirib: "AZAL-la oyun bizim üçün çox böyük əhəmiyyət daşıyırdı. Həmin oyunda qalib gəlməsəydik, işimiz qat-qat çətinləşəcəkdi. Həm sonuncu pillədə qalacaqdıq, həm də futbolçularda əlavə psixoloji gərginlik, ruh düşkünlüyü yaranacaqdı. Yaxşı ki, toparlanıb 3 xalı götürdük.

İnanıram ki, bundan sonra ancaq qələbələr qazanacağıq və azarkeşlərimizi sevindirəcəyik. Əslində "Simurq"a və "Xəzər Lənkəran"a da uduzmamalıydıq. "Simurq"la oyunda üstün tərəf biz idik. Rəqib ilk hissədə qapıya bir zərbə vurdu o da qol oldu. "Turan"la oyunda isə hakim səhvinin güdazına getdik. O, Ruslan Abışova yalnış vərəqə göstərib meydançadan çıxarmasaydı evə qələbə ilə dönəcəkdik".

### Puyol "Barselona"dan ayrıla bilər



"Barselona" klubunun kapitanı Karles Puyol mövsümün sonunda komandadan ayrıla bilər.

"Fichajes.net" saytının verdiyi məlumata görə, 34 yaşlı futbolçu Çin və ərəb klublarından təklif alıb.

Son zamanlar zədədən əziyyət çəkən Puyolun mövsümün sonunda "Barselona"dan ayrılacağı istisna olunmur. Lakin Puyolu transfer etmək istəyən komandaların adları açıqlanmayıb. Həmin klublar yüksək məbləğ qarşılığında Puyolu transfer etmək istəyirlər. İspaniyalı futbolçunun bu təklifləri necə qarşılayacağı isə böyük maraq doğurur.

Qeyd edək ki, 1999-cu ildən "Barselona"nın şərəfini qoruyan Puyol keçirdiyi 377 oyunda 11 qola imza atıb.

### *İquain:* "Ronaldo və Messi "canavar" kimidirlər"




"Real" (Madrid) klubunun hücumçusu Qonzalo İquain Kriştiano Ronaldo və Lionel Messi müqayisəsinə toxunub.

"Radio Metro"ya danışan argentinalı futbolçu hər iki futbolçunu "canavar"a bənzədib: "Ronaldo və Messini müqayisə etməyi sevmirəm. Çünki hər iki futbolçu dünyanın ən yaxşı oyunçularıdır və onlar bunu haqq edirlər. Ronaldo və Messi ilə bir komandada oynayan şanslı futbolçuyam. Ona görə də bu iki futbolçu arasında seçim edə bilmirəm. Hər ikisi "canavar" kimidir".

## "Belə şeylərin axırı yaxşı qurtarmır"

**Milli komandamızın yarımmüdafiəçisi Elvin Məmmədovun Qol.Az saytına müsahibəsi**



***— Yığmamızı oktyabrın 16-da səfərdə Rusiyaya qarşı keçiriləcək oyuna hazır hesab edirsən?***

— Bu qarşılaşmanın məsuliyyətini yaxşı dərk edirik. Məşqlərdə futbolçular canla-başla çalışırlar. Belə davam etsək, qarşıdakı oyuna yüksək əhval-ruhiyyədə çıxacağıq.

***— Rusların yığmamıza yuxardan aşağı baxmasına münasibətin necədir?***

— Qoy, onlar bu cür fikirləşməkdə davam etsinlər. Bəzən belə şeylərin axırı yaxşı qurtarmır. Türkiyə millsi də bir zamanlar bizi ciddiyə almamışdı. Nəticədə bizimlə qarşılaşmada məğlub olaraq dünya çempionatı kimi mötəbər yarışdan kənarda qaldılar. Əsas məsələ bizim onlardan xal almağımızdır. Rusların arxayınçılığı bizim xeyrimizə işləyə bilər.

***— Necə düşünürsən, rusların hansı mövqeyindən ehtiyat etmək lazımdır?***

— Düzdür, onlar onsuz da evdə daha güclü təsir bağışlayırlar. Rusların orta və hücum xətti daha təhlükəli olur.

***— Rusiyayla matçda meydana çıxacağına inanırsan?***

— Bu barədə baş məşqçiylə söhbətimiz olmayıb. Ancaq məşqlərdə özümü yaxşı tərəfdən göstərməyə çalışıram ki, növbəti oyunda heyətdə yer alım. Əgər baş məşqçi mənə şans versə, əlimdən gələni edəcəyəm. Mən millidə kifayət qədər oyun keçirmişəm. Qol vurmuşam, qol ötürmələri ötürmüşəm. Bu təcrübəmə güvənərək, etimadı doğruldacağıma inanıram.

***— Bəs fikrincə, Rusiya səfərindən xalla qayıda bilərik?***

— Ruslar kağız üzərində favoritdir. Lakin elə bir komanda yoxdur ki, ondan xal alınmasın. Əgər Bakıda onların qapısına qol vurub bərabərə qalmışıqsa, eyni şeyi "Lujniki"də də edə bilərik. Şəxsən mən komandamıza inanıram.

**Əli HƏYATİ**

## "Azərbaycan və Rusiya ilə oyunlardan 4 xal toplayacağımızı gözləyirdik, ancaq..."

"DÇ-2014"ün seçmə mərhələsində millimizin rəqiblərindən olan İsrail yığmasının baş məşqçisi Eli Qutman Lüksemburqla oyunöncəsi mətbuat konfransı keçirib.

Qutman son iki oyunda uğursuz nəticələrə baxmayaraq, İsrail yığmasındakı fəaliyyətini davam etdirəcəyini bildirib: "Mənim İsrail yığması ilə müqaviləm var və sonadək vəzifəmi yerinə yetirəcəyəm. Millidəki fəaliyyətim seçmə mərhələdə xal toplanması ilə bağlı deyil. Son iki oyunda azarkeşlərimizi məyus etdik. Azərbaycan və Rusiya ilə oyunlardan 4 xal toplayacağımızı gözləyirdik. Ancaq alınmadı. Bununla belə, ümidimizi itirmirik. Artıq qarşıdakı oyunlara daha ciddi hazırlaşırıq". Qeyd edək ki, seçmə mərhələnin ilk matçında Bakıda millimizlə 1:1 bərabərə qalan İsrail yığması, 4 gün sonra evdə Rusiyaya 0:4 hesabı ilə uduzmuşdu.

## "Qəbələ" özünə bənzəmirdi"

**"Qəbələ" klubunun müdafiəçisi Şəhriyar Xəlilovun Qol.Az saytına müsahibəsi**

***— Premyer Liqanın VIII turunda "Bakı" ilə oyunda sən də meydanda idin. Komandan hesabda irəli olsa da, nəticəni qoruyub saxlaya bilmədi. Bunu nə ilə əlaqələndirərdin?***

— Oyunun ilk dəqiqələri bizim üçün çox yaxşı başlamışdı. Hətta 14-cü dəqiqədə rəqibimizi məğlub duruma salmışdıq. Sonradan oyunumuzda qırılma baş verdi. Bunun da səbəbi aydındır.

***— Yəqin ki, komanda yoldaşın Rövşən Əmiraslanovun matçın 43-cü dəqiqəsində qırmızı vərəqə almasını və azlıqda mübarizə aparmağınızı nəzərdə tutursan?***

— Bəli. Bundan sonra rəqib say üstünlüyünə yiyələndi. Nəticədə ikinci hissənin əvvəlində qapımıza qol vurdular. Fikrimcə, Rövşən qırmızı vərəqəyə layiq kobudluq etməmişdi. Oyunun gedişatında məcburi taktiki dəyişikliklər edildi. Nəticəyə gəlincə, azlıqda mübarizə aparmağımıza rəğmən bir xal pis nəticə deyil.

***— Sabiq baş məşqçin Fatih Kavlakın zamanında meydanda demək olar ki, az görünürdün. Lakin Ramiz Məmmədovun bu posta gəlişindən sonra güclü komandalarla qarşılaşmalarda da baş məşqçi səni oyuna buraxır...***



— Bəli, doğru söylədiniz. Ramiz Məmmədov komandaya gəldiyi gündən yerli gənc futbolçuların hər birinə şans verməyə çalışır. Mən də bundan istifadə edərək özümü yaxşı tərəfdən göstərməyə çalışıram. Birdə ki, əsas heyətin daimi oyunçusu olmaq üçün öz üzərində dəyanmadan çalışmalısan. Əlimdən gələni edəcəyəm ki, Ramiz müəllimin mənə göstərdiyi etimadı doğruldum.

***— Mövsüm başlayan kimi "Qəbələ" ard-arda uğursuzluqlarla qarşılaşdı. Komandada nələr baş verirdi? Hazırda bu çatışmazlıq aradan qaldırılıbmı?***

— Həmin dövrdə "Qəbələ" özünə bənzəmirdi. 1-2 məğlubiyyətdən sonra futbolçularda ruh düşkünlüyü yaranmışdı. Lakin Ramiz Məmmədovun gəlişindən sonra vəziyyət düzəlib. Dalbadal iki güclü komandayla oyunda məğlub olmamışıq. Komanda yoldaşlarımda bir canlanma, yaxşı mənada aqressivlik var. Məşqlərdə daha səylə çalışırlar. Ramiz müəllim komandaya yeni ruh gətirdi.

***— Qarşıdakı oyununuz səfərdə "Xəzər Lənkəran"a qarşı olacaq.***

— Növbəti rəqibimiz də xeyli vaxt idi, uğursuz çıxış edirdi. Lakin bizim kimi onlarda artıq özlərini toparlayıblar. Doğrudur, güclü azarkeş dəstəyi olan "Xəzər Lənkəran"a səfərdə qalib gəlmək çətindir. Ancaq biz də elə-belə komanda deyilik.

***— Bəs şanslarınızı necə görürsən?***

— Hələ ki, bir müddət fasilə yaranıb. Buna kimi komandamız özünü daha da toparlayar. İnanıram ki, "Qəbələ" səfərdən yaxşı nəticəylə dönəcək.

**Əli HƏYATİ**

### Əziz Yıldırım haqda növbəti şok iddia



Türkiyəli jurnalist Mehmet Baransu "Fənərbağça" klubunun prezidenti Əziz Yıldırımı məhkəməyə verib.

Baransu Yıldırımı saxta "əsgərliyə yararsız" raportu almaq üçün öz yerinə qardaşı oğlunu hərbi tibb komissiyası qarşısına çıxarmaqda ittiham edib.

İstanbul Baş Prokurorluğuna müraciət edən qəzetçi olayın 1983-cü ildə baş verdiyini yazıb. İddianaməyə əsasən, həmin vaxt Yıldırım İzmir Hərbi Komissarlığına öz yerinə qardaşı oğlu Osman Yalçını göndərib. Yalçın özünü Aziz Yıldırım kimi təqdim edib. O, 4 yaşında ikən yıxıldığını və sağ ayağının 6 sm qısaldığını bildirib. Nəticədə 31 oktyabr 1983-cü ildə Əziz Yıldırıma "əsgərliyə yararsız" kimi saxta sənəd verilib.

Baransu bildirib ki, Yıldırım bu sənədi alarkən, səlahiyyətli şəxslərə rüşvət də verib. O, klub prezidentinə qarşı "rüşvət" və "hərbi xidmətdən yayınma" maddələri ilə cinayət işinin açılmasını və lazımi cəza almasını tələb edib.

Qeyd edək ki, Əziz Yıldırım Türkiyə futbolundakı danışılmış oyunlarla əlaqədar 2011-ci il iyulun 3-də həbs olunub. O, 6 ayadək həbsxanada qaldıqdan sonra azadlığa buraxılıb.

### *Messi:* "Kapitanlıq sarğısı məni dəyişdirməyib"



Argentina millisinin və "Barselona" klubunun hücumçusu Lionel Messi komandasının "DÇ-2014"ün seçmə mərhələsindəki şanslarını dəyərləndirib.

"Fox Sports Radio"ya danışan Uruqvay və Çili ilə keçiriləcək oyunların komandası üçün mühüm əhəmiyyət daşıdığını bildirib:

"Daha öncə məğlub olduğumuz oyunlardan sonra çox pis günlər keçirdim. Ancaq hazırda daha yaxşı vəziyyətdəyik və son oyunlar qələbə qazanırıq. Hər zaman milli komandaya gəlib burada oynamaqdan böyük həzz alıram.

Qarşıda iki çətin oyunumuz var. Uruqvay və Çili ilə görüşlərdə qələbə qazanmaq istəyirik. Müəyyən təzyiqlərə baxmayaraq, özümü millidə daha yaxşı hiss edirəm. Kapitanlıq sarğısı məni dəyişdirməyib. Əvvəl necə idimsə, indi də eləyəm".

Qeyd edək ki, Argentina millisi oktyabrın 13-də evdə Uruqvayla, 4 gün sonra səfərdə Çili yığması ilə qarşılaşacaq.

### *Kapello:* "Rusiyada həyat olduqca çətindir"



"DÇ-2014"ün seçmə mərhələsi çərçivəsində millimizin rəqiblərindən olan Rusiya yığmasının baş məşqçisi Fabio Kapello yenidən maraqlı açıqlamaları ilə diqqət çəkib.

UEFA-nın rəsmi saytına danışan italiyalı mütəxəssis Rusiyada həyatın çətin olduğunu bildirib.

"Burada hər şey rusca yazılır. Bunu oxumaq və öyrənmək olduqca çətindir. Ancaq öyrənmək üçün bir yerdən başlamalıyam. Təbii ki, belə çətinliklər hər zaman olur. Bununla belə, çətinliklərin öhdəsindən gəlməyi sevirəm. Moskva çox gözəl bir şəhərdir. Burada oteldə qalıram və hər gün gözəl bir mənzərə ilə qarşılaşıram. Məsələn, 2018-ci ildə Rusiyada keçiriləcək dünya çempionatı üçün tikilən stadionlar".

Qeyd edək ki, Rusiya millisi seçmə mərhələ çərçivəsində oktyabrın 12-də Moskvada Portuqaliya, 4 gün sonra isə millimizlə qarşılaşacaq.

### "İnter" "Qarabağ"la qarşılaşacaq

"İnter" klubu "DÇ-2014"ün seçmə mərhələsinin oyunlarıyla əlaqədar Premyer Liqada yaranmış fasilədən istifadə edərək yoldaşlıq görüşü keçirməyi planlaşdırır.

Komanda oktyabrın 13-də "Şəfa" stadionunda "Qarabağ"la qarşılaşacaq.

Qeyd edək ki, bu oyun saat 18:00-da baş tutacaq.

**Materialları Anar Cəfərsoy hazırladı**

**Qəzet 1992-ci il noyabrın 17-dən çıxır.**

**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar Əliyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov

Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet "Azərbaycan" nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: "525" şirkəti
İndeks: 0046, tiraj: 2250, sifariş:3413
"TURAN", "TREND", AzərTAc, "AssA-İradə", APA və "OLAYLAR"ın informasiyalarından istifadə olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.